**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANDA İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ TƏMİNATININ SİSTEMLİ TƏHLİLİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Rəhimova Jalə Anar qızı**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**______________________imza**

**"___" __________ 2021-ci il**

# "AZƏRBAYCANDA İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ TƏMİNATININ SİSTEMLİ TƏHLİLİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403 - Maliyyə**

**İxtisaslaşma: Maliyyə menecmenti**

**Qrup: 644**


**Magistrant:**
**Rəhimova Jalə Anar qızı**
**______________________ imza**

**Elmi Rəhbər:**
**i.e.d. Prof. Mirələm Həsənli Xası oğlu**
**______________________ imza**

**Proqram Rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**______________________ imza**

**Kafedra Müdiri:**
**i.e.d., Prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________ imza**


**BAKI - 2021**

## Elm andı

Mən, Rəhimova Jalə Anar qızı and içirəm ki, “Azərbaycanda iqtisadi diversifikasiyanın maliyyə təminatının sistemli təhlili” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# “AZƏRBAYCANDA İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ TƏMİNATININ SİSTEMLİ TƏHLİLİ”


## XÜLASƏ

**Mövzunun aktuallığı: İqtisadiyyatın diversifikasiyası –maliyyə siyasətinin ən effektiv alətlərindən biri olaraq Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və fundamental dəyişikliklər edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.2014-cü ildə Azərbaycan Respublikasının Prezideni cənab İlham Əliyev post-neft dövrünün başlanması ilə bağlı bəyanat verdi və bu bəyanat Azərbaycan üçün 2 prioritet müəyyənləşdirdi.**

- **iqtisadiyyatın diversifikasiyasına nail olmaqla neftdən asılılığı azaltmaq**
- **idxalın əvəzlənməsini təmin etməklə yerli istehsalı stimullaşdırmaq**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi ölkə iqtisadiyyatının spesifik xüsusiyyətləri nəzərə alınmaqla sektorlar arasındakı qarşılıqlı əlaqələri sadə və dolğun şəkildə əks etdirən, eləcə də gələcəkdə genişlənmə imkanı olan makro-ekonometrik modelin qurulmasıdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Ekonomik qiymətləndirmənin effektivliyinin təmin edilməsi məqsədi ilə iki əsas model – Vector Autoregression (VAR) və Simple Linear Regression (SLR) tətbiq edilib.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işində Azərbaycan iqtisadiyyatında qeyd olunan problemlərin təhlili ;iqtisadi diversifikasiyanın təsir və tətbiq dairəsi ;həyata keçirilən və keçiriləcək islahatlar; əsaslı dəyişikliklər dayanıqli iqtisadi inkişafa şərait yaradan bütün bazar strategiyaları araşdırılır.**

**Tədqiqatın məhdudiyyətləri:Azərbaycanda iqtisadi diversifikasiyanın tətbiqi ilə bağlı eyani makromodellər kifayət qədər azdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Azərbaycanda iqtisadi dayanıqlılığın və yerli istehsalın stimullaşdırılması baxımından əhəmiyyət daşıyır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: İstehsalat sahəsində fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslər;eyni zamanda universitetin bakalavr və magistr tələbələri elmi işimdən faydalana bilərlər.**



***Açar sözlər: diversifikasiya; rəqabətqabiliyyətlilik; iqtisadi dayanıqlılıq; investisiya***

**"SYSTEMATIC ANALYSIS OF THE FINANCIAL PROVISION OF ECONOMIC DIVERSIFICATION IN AZERBAIJAN"**


**Summary**

**Relevance of the research: Diversification of the economy is one of the most effective tools of fiscal policy in terms of diversification of the Azerbaijani economy and fundamental changes. In 2014, the President of the Republic of Azerbaijan Ilham Aliyev issued a statement on the beginning of the post-oil era. There were 2 priority:**

**¬ Reduce dependence on oil by diversifying the economy**

**¬ Stimulate local production by ensuring import substitution**

**The purpose of the research: The aim of the study is to build a macroeconomic model that takes into account the specific features of the country's economy, reflecting the interactions between sectors in a simple and complete way.**

**Research methods used: Two main models - Vector Autoregression (VAR) and Simple Linear Regression (SLR) were used to ensure the effectiveness of economic evaluation.**

**Information base of the research: Analysis of the problems mentioned in the research work in the economy of Azerbaijan; scope and impact of economic diversification; reforms implemented; Major changes all market strategies that create conditions for sustainable economic development are explored.**

**Limitations of the research: There are very few visual macromodels related to the application of economic diversification in Azerbaijan.**

**Practical results of the research: It is important in terms of stimulating economic sustainability and local production in Azerbaijan.**

**The results can be used: Individuals or legal entities operating in the field of production, as well as undergraduate and graduate students of the university can benefit from my research.**



***Keywords: diversification; competitiveness; economic sustainability; investment***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **SKMF** | Sahibkarlığa Kömək Milli Fondu |
| **AİZ** | Azad İqtisadi Zona |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |

# MÜNDƏRİCAT

**GİRİŞ** ........ **8**
**I FƏSİL.İQTİSADİYYATIN DİVERSİFİKASİYASI VASİTƏSİLƏ DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI** ........ **11**
1.1. İqtisadi sistemin diversifikasiyasının konseptual əsasları ........ 11
1.2. Diversifikasiyanın dayanıqlı iqtisadi inkişafa təsirinin nəzəri-metodoloji aspektləri ........ 16
**II FƏSİL.AZƏRBAYCANDA İQTİSADİYYATIN DİVERSİFİKASİYALAŞDIRILMASININ MALİYYƏ TƏMİNATI MEXANİZMİNİN TƏDQİQİ.** ........ **26**
2.1. Müasir şəraitdə iqtisadiyyatın diversifikasiyalaşdırılmasının maliyyə təminatı mexanizminin hüquqi bazasının tədqiqi və təhlili ........ 26
**III FƏSIL. İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ TƏMİNATININ MODELLƏŞDİRİLMƏSİ VƏ İDARƏEDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** ........ **45**
3.2. İqtisadi mühitin liberallaşdırılması və institusional islahatlar yolu ilə ölkənin investisiya cəlbediciliyinin artırılması ........ 54
3.3. Effektiv diversifikasiya fəaliyyəti: dövlətin monetar və fiskal-vergi siyasəti ... 63
**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ **76**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ **78**
Sxemlərin siyahısı ........ 84
Cədvəllərin siyahısı ........ 84
Qrafiklərin siyahısı ........ 84

# GİRİŞ

**Mövzunun aktuallığı.** İqtisadiyyatın diversifikasiyası –maliyyə siyasətinin ən effektiv alətlərindən biri olaraq Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və fundamental deyisikliklər edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan iqtisadiyyatının diversifikasiyası istiqamətində mövcud siyasətin effektivliyinin artırılması gələcək inkişaf dinamikasının sürətlədirilməsi və xarici fluktasiyalara qarşı dayanıqlı mühitin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan mövzu cox aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Diversifikasiyanın milli iqtisadiyyat üçün faydaları bir sıra tədqiqatçılar tərəfindən araşdırılmışdır. John Thompson və Alexander Boehmer Orta Şərq və Şimali Afrika ölkələrinin iqtisadi inkişaf trendini təhlil edərkən qeyd edirlər ki, iqtisadi diversifikasiyanın aşağı səviyyəsi, yəni iqtisadi fəaliyyətdə və ixracda əsasən neft və qaz məhsullarının, həmçinin kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etməsi bu ölkələrin iqtisadi artımını və məşğulluq imkanlarını zəiflətmişdir .Belə ki, 2000-ci illərdə dünya iqtisadiyyatında yaşanan iqtisadi inkişafdan çox kiçik miqyasda faydalana bilmişdir.İqtisadiyyatda baş verən dalğalanmaları nəzərə alaraq tədqiqat işində dörd əmtəə qrupu – yanacaq məhsulları, emal sənayesi məhsulları, qida və kənd təsərrüfatı məhsulları və metal faydalı qazıntı qrupları üzrə vahid indeks modelindən istifadə edərək, ölkələrin ixrac fəaliyyətini təhliI edilir.

Eyni zamanda tədqiqat işində təsvir olunan iqtisadi mühit 2016-2020 və 2020-2025 ci illər qisamüddətli və orta-uzunmüddətli dövr olaraq təsnifləşdirilir.Qısa dövr üçün hədəflər idxaldan asılılığın mərhələli şəkildə azaldılması Azərbaycanda istehsalın və istehlakın neftin qiymətlərinə uyğunlaşdırılmasından ibarətdir.Orta və uzunmüddətli hədəf isə diversifikasiyanı sistemli şəkildə tətbiq etməklə dövlət gəlirlərinin formalaşmasından qeyri-neft sektorlarının payının artılmasi və həmin sektorlarda ixrac qabiliyyətinin təşviq olunması bununla da büdcə kəsirinin azaldılması əsas prioritetlərdəndir.Post –neft dövrünə keçid mərhələsində diversifikasiya prosesinin

tətbiq olunması üçün diversifikasiya mənbələrinin maliyyələşdirilmə dərəcələri müəyyənləşdirilməlidir. Ona görə ki hər hansı maliyyə siyasətinin və ya bazar islahatının həyata keçirilməsi üçün maddi baza lazımdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi ,iqtisadi inkişafın diversifikasion potensialının artırılması yolları,qarşıya qoyulan prioritetlərə nail olmaq üçün görüləcək tədbirlərin hazırlanmasına yönəlmişdir və aşağıdakı vəzifələrin tədqiqi qarşıya qoyulmuşdur:

- İqtisadi diversifikasiyanın tamamilə əlaqəsi olmayan sektorlarda risk bölüşdürmə strategiyası tətbiq edərək iqtisadiyyatın dayanıqlılığının təmin edilməsi;
- İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın komplektləşdirilməsi məqsədilə formalaşdırılan istehsal diversifikasiyası və bu sistemin Azərbaycanda tətbiq olunması üçün mövcud olan şəraitin qiymətləndirilməsi;
- Qeyri- neft sektorunda iqtisadi aktivliyin artirılması;
- İqtisadi diversifikasiyanın ölkədə əlverişli biznes investisiya mühiti yaradılmasında rolunun öyrənilməsi;
- İqtisadiyyatın bütün sahələrində kapital qoyuluşunun təmin edilməsi;
- İqtisadi-ticari əməkdaşlıq və ictimai əmək bölgüsünün tətbiq olunması ilə ölkədə əmək məhsuldarlığının yüksəlməsi və istehsal məsrəflərinin azalması yönündə edilən tədbirlərin araşdırılması;
- Ölkədə makroiqtisadi sabitlik istiqamətində keçirilən struktur islahatlarının regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində əhəmiyyətinin aşıqlanması;
- Azərbaycan Respublikasının Strateji Yol Xəritəsinə istinad edərək dəyər zəncirinin tamamlanmasında təsiri olan iqtisadi proseslərin idarə edilməsi və proqnozlaşdırılması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini iqtisadi diversifikasiyanin maliyyə təminati, predmetini isə Azərbaycanda iqtisadi diversifikasiyanin maliyyə təminatinin sistemli təhlili təşkil edir.

**İstifadə olunmuş tədqiqat metodları:** VAR modeli vasitəsilə iqtisadi sektorlar üzrə diversifikasiya səviyyəsinin ölçülməsi, SLR modeli isə diversifikasiya siyasətinin maliyyələşmə mənbələri və onun gələcək təsirlərini qiymətləndirmək üçün tətbiq edilib.

**Tədqiqatın informasiya bazası:** Dissertasiyanın informasiya bazası kimi Mərkəzi Bankın, İqtisadiyyat Nazirliyinin və s. qurumların, Həmçinin, "Azərbaycan Respublikasının strateji yol xəritəsi" dən Cənab Prezident İlham Əliyevin iqtisadiyyatı təşviq etmək məqsədilə həyata keçirtdiyi maliyyə siyasətinin normativ hüquqi aktları-fərman və sərəncamları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri**: SLR reqressiya modelinin nəticələrindən məlum olur ki, iqtisadi siyasətin ayrı-ayrı parametrlərinin sektorlar üzrə təsirini birmənalı qiymətləndirmək çətindir. Çünki modelləşdirmə zamanı tətbiq edilən faktorlar ayrı-ayrı sektorlar üzrə fərqli təsirlərə malik olub. Bu isə iqtisadi şaxələndirmə siyasətinin maliyyə mənbələri üzrə dəstəklənməsi mexanizmlərinin yenidən işlənib hazırlanmasını zərurətə çevirir.

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri**: Optimal iqtisadi siyasətin həyata keçirilməsi və Azərbaycan hökuməti tərəfindən başladılan iqtisadiyyatın diversifikasıyası yolu ilə neft asılılığının azaldılması, qeyri-neft istehsalının artırılması yolu ilə daxili tələ-batın bir hissəsinin ödənilməsi və ixracın artırılması siyasətinin dəstəklənməsi; məqsədli regional proqramlar vasitəsilə sahibkarlığa dəstək bazasının formalaşdırılması cəhətdən dissertasiyada əldə edilmiş nəticələr əhəmiyyət daşıyır.

**Nəticələrin istifadə oluna biləcəyi sahələr:** Tədqiqatın materiallarından ali təhsilin bakalavr və magistr səviyyələrində təhsilalanlar faydalana bilərlər.

# I FƏSİL.İQTİSADİYYATIN DİVERSİFİKASİYASI VASİTƏSİLƏ DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. İqtisadi sistemin diversifikasiyasının konseptual əsasları

İqtisadiyyatda diversifikasiya - birtərəfli, çox vaxt yalnız bir məhsula, istehsal strukturuna əsaslanan məhsulların geniş çeşidli çoxşaxəli istehsalına keçid.

Diversifikasiya fikri uzun bir tarixə malikdir. Diversifikasiya müasir xüsusiyyətlərini əldə etməzdən əvvəl, firmaların qlobal strategiyası çərçivəsində xarici şərtlərin və firmadaxili meyarların təsiri altında dəyişərək çətin bir inkişaf yolu keçib. Bu cür təkamül tarixi şərti olaraq dörd mərhələyə bölünə bilər : əmtəə dəsti; sənaye dəsti; bir sıra sahələr və fəaliyyət sahələri; ölkələr dəsti. Birinci fəsildə diversifikasiyanı ilkin aspekt kimi firma iqtisadiyyatı üzərində təhlil edirik,araşdırmanın növbəti pillələrində isə bu konseptual yanaşmalardan istifadə edərək ölkə müstəvisində şaxələndirmə prosesini tətbiq edəcəyik.

Bazarda baş verən yeniliklər firmanın da bu yeniliklərə reaksiya verməyə sövq edir, həmin yenilik isə daha təkmil strateji ideyaların yaradılmasına təkan verir. Buna görə də strategiyanın fasiləsiz olaraq təkmilləşdirilməsi zərurəti yaranır. Strategiyanın hazırlanması prosesi isə özünün mərhələ və pillələri arasında qarşılıqlı əlaqənin formalaşması, ardıcıllığı və dinamikliyi ilə 27 seçilir. Strateji planlaşdırma kontekstində strategiyanın hazırlanması prosesinin mərhələləri aşağıdakılardan ibarətdir: - Daxili və xarici mühitin öyrənilməsi və təhlili; - Müəssisənin (firmanın) missiyasının (niyyətinin) və məqsədlərinin müəyyən edilməsi; - Strategiyanın formalaşdırılması, seçilməsi və təhlili; - Seçilmiş strategiyanın həyata keçirilməsi; - Strategiyanın icrasının qiymətləndirilməsi və onun üzərində nəzarətin təşkili. Qeyd edilən kontekstdə strategiyanın hazırlanması prosesinin pillələri isə aşağıdakılardan ibarətdir:

- məqsədin qoyuluşu və ona çatmaq meylinin formalaşması;

- müəssisənin missiyasına uyğun müvafiq təhlillərin aparılması;
- strateji qiymətləndirmənin həyata keçirilməsi;
- strategiyanın özünün formalaşdırılması;
- strategiyanın həyata keçirilməsi.

Strategiyanın hazırlanması prosesinin mərhələləri və pillələri həmin mərhələ və pillələrin həyata keçirilməsinin başlıca şərti prosesin real informasiya ilə təmin edilməsidir. Digər tərəfdən, strategiyanın hazırlanması zamanı təhlil və qiymətləndirmənin əlaqəli metodlarından istifadə edilməsi vacibdir. Bizim fikrimizcə stategiyanın hazırlanmasının aşağıdakı xüsusiyyətlərini göstərmək olar: stategiya plan, davranış prinsipi, mövqe, vasitə və perspektiv kimi sərgilənməlidir;

- strategiya həmişə məqsədəçatma vasitəsi kimi çıxış edir;
- strategiya hücümu, müdafiəni və manevri birləşdirir;
- strategiyanın hazırlanması hər hansı hərəkətin baş verməsi ilə bitmir. Adətən, strategiyanın hazırlanması ümumi istiqamətləri müəyyənləşdirməklə bitir;
- strategiya bir adamın beynin məhsulu olmamalıdır. O, "zehni hücum" metodu vasitəsilə hazırlanmalıdır;
- arzulanan nəticəni əldə etdikdə strategiyaya tələbat bitir;
- strategiya hazırlanarkən bütün imkanları qabaqcadan görmək qeyri-mümkündür. Buna görə ümumiləşdirilmiş informasiyalardan istifadə edilir;
- strategiya ehkam deyildir, yeni informasiya yarandıqca o, korrektə edə bilər;
- strategiya ilə orientir (istiqamət) eyni məna kəsb etmirlər, orientir məqsəddir, strategiya isə məqsədəçatma vasitəsi;

• strategiya ilə orientr bir-birini əvəz edə bilərlər və bəzən iyerarxiya təşkil edirlər. Məsələn məqsəd mənfəətdirsə, onda strateji dəstin bir hissəsi bazar payı ola bilər, əksinə bazar payı məqsəddirsə, onda mənfəətin artırılması strateji dəstin bir hissəsidir. Strategiya və məqsədlərin iyerarxiya təşkil etməsinə misal kimi işgüzar təşkilat və onun bölmələrinin məqsəd və strateji dəstlərini göstərmək olar. Məsələn, işgüzar təşkilatın başıca məqsədi mənfəətdirsə, bu təşkilatın ayrıca bir bölməsinin və ya sexinin məqsədi mənfəət ola bilməz, "A" sexinin məqsədi "X" məhsulunun istehsalını artırmaq ola bilər. Deməli, təşkilatın ayrıca bölmə və sexlərinin məqsədləri təşkilatın başlıca məqsədinə çatmaq üçün strateji dəstlərin ayrı-ayrı hissələri ola bilər və bu baxımdan strategiya və məqsəd iyerarxiya yaradır. İ.Ansoffa görə strategiyanın hazırlanmasında dörd qrup qaydalar dəstindən istifadə edilir (Ансофф, 1999, s. 98).

• mövcud və perspektiv fəaliyyəti qiymətləndirən strateji dəst;

• şirkətin xarici mühiti ilə münasibəti müəyyənləşdirən strateji dəst (biznes və ya əmtəə strategiyası);

• təşkilatdaxili münasibətləri müəyyənləşdirən qaydalar dəsti (buna bəzən təkilati konsepsiya da deyirlər – sosial davranış normaları, korporativ mədəniyyət, təşkilatın fəlsəfəsi və s.);

• gündəlik fəaliyyətdə istifadə edilən qaydalar dəsti (operativ alətlər)".

Diversifikasiya anlayışının nəzəri konseptual əsasını Ansoff matrisi təşkil edir.

*bazara nüfuz etmə* strategiyası marketinq siyasətinin həyata keçirilməsilə bağlıdır. Belə ki eyni məhsulların modifikasiya olunmuş formada və ya yeni məhsulların bazara çixarılması prosesini əhatə edir.

*bazarın inkişaf strategiyası* –satış kanallarının çeşidliliyinin artırılması yolu ilə yeni istehlakçılara inteqrasiya olunmaqdır.

*məhsulun inkişaf strategiyası*-marketinq cəhətdən məhsulun xarici görünüşü üzərində əməliyyatların aparılması;istehlakçı tələbati ilə bağlı istehsal bölmələrinin məlumatlandırılması.

**Sxem 1: Ansoff matrisi**




**Mənbə**: https://corporatefinanceinstitute.com/resources/knowledge/strategy/ansoff-matrix/

Bu şəkil iki firmanın müxtəlif strategiyaları tətbiq edərək illik maliyyə vəziyyətlərini (yəni aktivlərin ,mənfəətin artımı və ya azalması) əks etdirir.

- Product development-məhsul inkisafi
- Market penetration-bazara nüfuz etme
- Diversification-saxələndirmə
- Grow substantially-əhəmiyyətli dərəcədə böyümə
- Grow moderately-orta böyümə
- Stay about the same size-eyni seviyyede qalma
- Increase profit margins-Mənfəət dərəcəsinin artimi
- Increase personal time-məhsul istehsalina sərf olunan adambasina düsen vaxtin artmasi
- Obtain more finance-daha cox maliyyə vəsaiti əldə etmə

Diversifikasiya anlayışına nəzəri yanaşmalardan biri də Porter nəzəriyyəsidir. Nəzəriyyəyə görə firma strategiyasının işlənib hazırlanması prosesı əsasən aşağıdakı mərhələlərdən ibarətdir: - cari strategiyanın müəyyənləşdirilməsi; - məhsul portfelinin təhlili; - firmanın strategiyasının secilməsi; - seçilmiş strategiyanın qiymətləndirilməsi; cari Strategiyanın müəyyənləşdirilməsi- bu mərhələnin mahiyyəti ondan ibarətdir ki, təşkilata dair strateji əhəmiyyət kəsb edən qərarlar qəbul edən zaman menecerlər təşkilatın hansı vəziyyətdə olduğu və hansı strategiyaları reallaşdırdığı barədə dəqiq təsəvvürə malik olsunlar. “Məhsul Portfelinin Təhlili” Bu, strateji idarəetmənin vacib elementlərindən biridir. Məhsul portfelinin təhlili firmanın ayrı-ayrı bölmələri arasında qarşılıqlı əlaqələrə dair aydın təsəvvür yaradır. Bu təhlilin köməyi ilə pul vəsaitlərinin daxil olması, risk, təzələnmə və köhnəlmə kimi vacib biznes amilləri arasında tarazlıq əldə etmək mümkündür.

**Cədvəl 1: Firmanın strategiyaları**

**Table V.** Objectives and growth strategies

| Objective (rank) | 1 (%) | 2 (%) | 3 (%) | 4 (%) | 5 (%) |
|---|---|---|---|---|---|
| Grow substantially | 14 | 12 | 5 | 2 | 0 |
| Grow moderately | 54 | 6 | 6 | 0 | 1 |
| Stay about the same size | 3 | 0 | 2 | 3 | 1 |
| Increase profit margins | 22 | 31 | 11 | 1 | 0 |
| Obtain more finance | 5 | 13 | 18 | 11 | 5 |
| Increase personal time | 2 | 7 | 18 | 9 | 6 |

**Table VI.** Priority growth strategies

| Growth strategy (rank) | 1 (%) | 2 (%) | 3 (%) | 4 (%) |
|---|---|---|---|---|
| Market penetration | 22 | 15 | 7 | 11 |
| Market development | 55 | 21 | 5 | 3 |
| Product development | 12 | 25 | 24 | 2 |
| Diversification | 121 | 7 | 15 | 22 |

**Mənbə:** Hill, C.W.L. ‘Diversification and economic performance: bringing structure and corporate management back into the picture’;2015:s.105

## 1.2. Diversifikasiyanın dayanıqlı iqtisadi inkişafa təsirinin nəzəri-metodoloji aspektləri

Məhsul portfelinin təhlili aşağıdakı mərhələlərdən ibarətdir:

- Təşkilatda məhsul portfelinin təhlilini həyata kecirmək ücün səviyyələrin secilməsi. Ayrıca məhsul səviyyəsindən başlayan və təşkilatın yüksək səviyyəsində tamamlanan məhsul portfelinin təhlili səviyyəsini, iyerarxiyanı müəyyən etmək olduqca zəruridir;

- Məhsul portfelinin təhlili matrisinin mövqeləşdirilməsində istifadə edilən, strateji biznes bölmələri adlanan təhlil vahidlərinin fiksasiyası. Bir sıra oxşar tələbləri ödəyən strateji biznes bölmələri bir və ya bir neçə məhsulu əhatə edə bilər. Bir sıra firmalar strateji biznes bölmələrini məhsul-bazar seqmenti kimi nəzərdə tuturlar;
- Lazım olan informasiya toplanmasında aydın təsəvvürə malik olması və təhlilin həyata kecirilməsi ücün matris parametrlərinin müəyyənləşdirilməsi. Məsələn, sahənin cəzbediciliyini öyrənərkən belə dəyişikliklər kimi bazarın ölcüsü, inflyasiyadan qorunmaq dərəcəsi, rentabellik, bazarın inkişaf tempi, dünya üzrə bazarın yayılma dərəcəsi çıxış edə bilər;
- Biznesin gücünün müəyyənləşdirilməsi məqsədilə bazar konyukturası, bazar payının yüksəldilməsi, aparıcı markaya münasibətdə bazarın payı, keyfiyyətdə liderlik kimi göstəricilərdən istifadə etmək olar;
- Bir neçə istiqamət üzrə verilənlərin toplanması və təhlili daha cox dörd vacib istiqaməti qeyd edir:mənfi və müsbət aspektlər baxımından sahənin cəzbediciliyi; firmanın rəqabət mövqeyi; firmanın imkanları və təhlükələri, hanslar ki, sahəyə deyil, bilavasitə firmaya təsir göstərir; müəyyən sahədə rəqabət mübarizəsinin həyata kecirilməsi ücün firmanın potensialına əsasən kadrların ixtisarı və ehtiyatı;
- Firmanın məhsul portfelinin cari vəziyyəti haqqında təsəvvürə malik olmaq məqsədilə məhsul portfelinin matrisinin qurulması və təhlili həyata kecirilir. Onun əsasında rəhbərlik matrisin gələcək vəziyyəti və eyni zamanda firmanın gözlənilən məhsul portfeli barədə proqnozlar verə bilər.
- Matris dəyişikliklərinin dinamikasının işlənib hazırlanması ona görə həyata kecirilir ki, məhsul portfelinin yeni vəziyyətə keçməsi firmanın qarşıya qoyduğu məqsədlərə nail olmasını aydınlaşdırsın. Bunun üçün məhsul portfelinin vəziyyətinin proqnozlaşdırılmasında aşağıda verilən xarakteristika müəyyənləşdirilməlidir: - cəzbedici sahədə portfel kifayət qədər biznesə malikdirmi; - “ulduzlari” becərmək və “sual işarələrini” müəyyənləşdirmək üçün kifayət qədər “sağmal inək” mövcuddurmu; - portfel kifayət qədər gəlirlərin əldə olunmasını təmin edirmi; - mənfi

tendensiyalarin mövcud olması portfelə nə dərəcədə təsir göstərir; - rəqabət baxımından portfeldə zəif bizneslərin sayı coxdurmu?

İnkişaf etməkdə olan Azərbaycan kimi ölkələrdə başlıca strateji məqsəd mövcud imkan və resurslar nəzərə alınmaqla davamlı iqtisadi artıma və yüksək sosial rifaha nail olmaqdır. Bunun üçün hər bir firma dayanıqlı rəqabət üstünlüklərinə nail olmaqla, sinerji təşkiletmə və «dəyərlər zəncirinin» bazasında inkişaf strategiyasını formalaşdırmaqla yanaşı ən yaxşı məhsul istehsalı ilə innovasiya strategiyası kontekstində öz vençur strategiyasını işləyib hazırlamalıdır.

**Qrafik 1: Bazarda rəqabətqabiliyyətliliyə təsir edən elementlər**




**Mənbə***:* H.P. Bowen.(2017). "Are international and product diversification substitutes or complements? Theoretical and empirical perspectives", Global Strategy Journal,.p.241-242

Bu vəziyyətdə bazarlar 2 növə bölünür:

Mövcud bazar, bir şirkətin artıq müəyyən fəaliyyətlər apardığı bir bazardır,

müvafiq olaraq - bu, hazırda istehlakçıların müəyyən bir hədəf auditoriyasıdır şirkət qarşılıqlı əlaqədədir. Yeni bazar giriş üçün potensial bazardır - onunla birlikdə olan bir qrup istehlakçı şirkət indi işləmir. Buraya mövcud bazardakı istehlakçılar da daxildir, lakin başqa bir seqmenti təmsil edən. Bazarlara bənzədərək I. Ansoff şirkətin məhsullarını 2 növə ayırır:

Mövcud məhsul - şirkətin öz aktiv portfelinin bir hissəsi olan məhsul və ya xidmətdir; Yeni məhsul - hazırda çeşid portfelində olmayan məhsul və ya xidmət.

Böyümə sürətinin bir neçə əsas növü var:

- yüksək;
- yavaşlayır, lakin böyüyür;
- durğunluq;
- Bazar həcmində azalma

1. Industry Rivalry (Sektordaki rəqabət)

2. Barriers to Entry, Threats of New Entrants

3. Bargaining Power of Suppliers Sektora yeni girəcək istehsalçıların və ya sahibkarların qarşılacaqları maneələr

4. Threat of Substitutes (Əvəzedicilərin təhditləri)

5. Bargaining Power of Buyers (Alıcıların, istehlakçıların qiyməti aşağısalma qabiliyyətləri)

Sıra ilə bu prinsipi formalaşdıran müddəaları aydınlaşdıracağıq. Porter modelinin rəqabətə davamlılığı yerli amillərlə bağlıdır. Araşdırmanın nəticəsində rəqabət gücünün göstəriciləri olan ana ünsürlər bunlardır.

• faktör göstəriciləri,

• tələb şərtləri, əlaqəli və dəstəkləyici bizneslərin vəziyyəti,

• firmanın təşkilati strukturu, strategiyası ve rəqabət vəziyyəti.

**Sxem 2: Porter modeli**




**Mənbə:** Bruijl, Gerard H. Th., The Relevance of Porter's Five Forces in Today's Innovative and Changing Business Environment (June 7, 2018):s.16

Vurğulanması gərəkli ən önəmli məqam, modelinin sistemik özəlliyidir. Buna görə, rəqabət gücünün göstəriciləri olan ana ünsürlər bir birini qarşılıqlı olaraq təsir edir. Yəni başqa ölkələrdə bu sistemin təkrarlanması çətin başa gəlir sadəcə sistemin tərkib hissələri bir biriylə əlaqədə olanda uzunmüddətli dövrdə fayda əldə etmək mümkündur.

İlərləyən illərdə porterin modelindəki rəqabət anlayışının yaxın iş çevrəsilə daha çox əlaqədə olduğu anlaşılmışdır. Buna görə: dünya iqtisadiyyatında yerli mikrobizneslərin önəmi artmışdır.Beləki sistemdə öz əksini tapa nana ünsürlər özünu

yerli mikroiqtisadiyyatlarda daha çox göstərir. Dolayısıyla, sistem "SİLİKON VADİSİ" kimi texnoloji regional şirkətlərdə tətbiqolunması daha məqsədəuyğundur.

**Sxem 3: ABŞ nümunəsi əsasında iqtisadi diversifikasiya**




**Mənbə:** https://clustermapping.us/.
ABŞ-da iqtisadi diversifikasiyanın tətbiqi

G. Mintzberqin diversifikasiya analizinə yanaşmasının mahiyyəti ondan ibarətdir ki, diversifikasiya olunmuş korporasiyaların enerjisi dinamik tarazlığı qorumağa yönəldilməlidir.

Yuxarıda göstərilən şərt yerinə yetirildikdə, G. Mintzberqin diversifikasiyası, onun fikrincə, şaxələndirmə prosesinin səmərəliliyini təmin edir. Daxili rəqabət üstünlüyü bir çox müasir şirkət üçün spesifik şaxələndirmə strategiyalarının formalaşması üçün nəzəri əsas olmuşdur. İş səviyyəsində rəqabət strategiyası bir şirkətin rəqabət üstünlüyünü formalaşdırmalı və saxlamalıdır. Korporativ şaxələndirmə də bu tələblərə üç müxtəlif yolla cavab verir: Diversifikasiya prosesi özü rəqabət üstünlüyü təmin edən əsas səriştədir;, tətbiqetmə qabiliyyətinə işarə edir, yəni bu səriştəlilik, xüsusən də ən yüksək rəhbərlik səviyyəsində şirkətin idarəetmə potensialının müəyyənləşdirilməsi ilə əlaqədardır;

Henry Mintzberg 1970-80-ci illərdə nəzəriyyəçilərin və praktiklərin baxışını dəyişdirdi. Mintzberqin konsepsiyası ondan ibarətdir ki, təşkilatın strukturu bir neçə komponentin qarşılıqlı təsirindən asılıdır;

Mintzberg strategiyasının təhlili. G. Mintzberqin "Üç formada strategiya" məqaləsi 1984-cü ildə dərc edilmişdir. Bu, strategiyanın formalaşmasını tamamilə fərqli bir şəkildə həyata keçirməyə imkan yaratmışdır.

- bir strategiyanın müəyyənləşdirilməsi düşünülmüş, şüurlu və idarə olunan düşüncə prosesidir;
- strategiya bir planlaşdırma prosesidir və bu səbəbdən də müəyyən bir mövqeyi inkişaf etdirmək üçün tanınmış bir standart alqoritmdən istifadə olunur (Ефимычев Ю.И., 2007).
- modelə uyğun olaraq strategiyanın hazırlanmasından məsul bir şəxs təyin edilir;
- plan hazırlandıqdan və strategiyanın tərifindən sonra onun icrası davam edəcəkdir;

- strateji planlaşdırma prosesində daha spesifik məlumat əldə etməsi halında tənzimləməyə icazə verilir və bu, müxtəlif yollarla formalaşdırıla və ötürülə bilən mükəmməl strategiyaların hazırlanmasına imkan verir;

Təşəbbüskar model: Modelin prinsipləri:

- strategiyanın formalaşdırılması lider-təşəbbüskarın zehnində baş verir, bu daima şüurlu bir proses olmadığı, olduqca spontan olduğu anlamına gəlir;
- bazarın işləmə dinamikasının uzun müddət araşdırılması və mövcud tendensiyaların dərindən başa düşülməsi ona görmə qabiliyyətini, işin gələcəkdə inkişaf etməsi lazım olan bir ssenarini formalaşdırmaq imkanı verir;
- bir növ bazadır, konkret qərarlar verilə biləcəyi əsas, ətraflı planlar hazırlanmış və müvafiq tədbirlər görülmüşdür;
- məhsuldarlığını və elastikliyini qorumaq üçün görmə qeyri-rəsmi və fərdi olmalıdır.
- strategiya tərifi inkişaf edən və eyni zamanda təkrarlanan bir prosesdir və qarşılıqlı rəy və qəbuletmə tələb edir;
- strategiya həyata keçirilmə müddətində əldə edilmiş xarici və daxili amillərin təsiri altında formalaşan bir modeldir;
- strategiya seçilmiş fəaliyyət meyarını yenidən nəzərdən keçirməyə hazır olmalıdır, çünki strategiyanın icrası zamanı yeni məlumatlar ortaya çıxır;
- strategiya yalnız onu yaradanların deyil, tətbiq edənlərin də işi olmalıdır;
- bu proses kortəbii və ya nəzarət altında ola bilər. İkincisi, strategiyaları müəyyənləşdirmək üçün tələb olunandan daha az nəzarəti nəzərdə tutur və müdaxilə yalnız lazım olduqda həyata keçirilir.

Məsələn, G. Greenlee-nin təsnifatı  şirkətin inkişaf dövrünə əsaslanır. Elmi ədəbiyyatda bir şirkətin (müəssisənin) inkişafının üç mərhələsi ümumiyyətlə ayrılır: böyümə, sabitləşmə, yaşamaq.

Digər bir yanaşma, R. Grantın təsnifatıdır, məhsulların, bazarların və sahələrin diversifikasiyasına əsaslanır. Böyük şirkətlərin korporativ strategiyaları ümumiyyətlə şaquli inteqrasiya (şaquli şaxələndirmə), fəaliyyətlərin qloballaşması (yeni bazarlara diversifikasiya) və işin diversifikasiyası (üfüqi və konglomerativ) kimi sahələrlə əlaqələndirilir.

Buna nümunə 2000-ci illərdən sonra sənaye müəssisələrinin çoxşaxəli böyüməsini göstərmək olar. Ölkədəki siyasi sabitləşmə kontekstində gəlirin əhəmiyyətli dərəcədə artması və uzunmüddətli biznes planlamasına keçid investisiya həcmlərinin əhəmiyyətli dərəcədə artmasına və resurs bazasının inkisafına imkan verir.

# II FƏSİL.AZƏRBAYCANDA İQTİSADİYYATIN DİVERSİFİKASİYALAŞDIRILMASININ MALİYYƏ TƏMİNATI MEXANİZMİNİN TƏDQİQİ.

## 2.1. Müasir şəraitdə iqtisadiyyatın diversifikasiyalaşdırılmasının maliyyə təminatı mexanizminin hüquqi bazasının tədqiqi və təhlili

Azərbaycanda iqtisadi diversifikasiya anlayışını təhlil edərkən bəzi situasiyalar formalaşır. Tədqiqatlar göstərir ki, post-neft dövrünün prioritetlərinə uyğun olaraq bu kontekstdən müqayisəli üstünlüyə malik olan sektorların müəyyənləşdirilməsi və dəstəklənməsi olduqca vacibdir. Bu, xüsusən də Azərbaycanda qeyri-neft ixracatının artırılması və bununla da daha çox valyuta daxil olmalarına nail olmaq aspektindən əhəmiyyətli hesab edilir.Birinci fəsildəki nəzəri konseptual yanaşmalar da daxil olmaqla iqtisadi qiymətləndirmənin əhatəliliyini artırmaq və elmi dərinliyini təmin etmək məqsədi ilə statistik, empirik və fundamental metodologiya ilə yanaşı ekonometrik qiymətləndirməni dolğunlaşdıran modelləşməyə də geniş yer ayrılıb. Qeyd edilən metodologiyaların paralel istifadəsi iqtisadiyyatın diversifikasiya səviyyəsinin ölçülməsi və imkanların üzrə çıxarılması baxımından ciddi əhəmiyyət daşıyır. Post-neft dövrünə keçid mərhələsində Azərbaycanda tələb iqtisadiyyatı prinsiplərinə uyğun olaraq real sektorun dəstəklənməsi və qeyri-neft sektorundakı inkişaf ilə dövlət büdcəsindən birbaşa ayırmalar arasında korrelyasiyanın azaldılması prioritet məsələlər sırasındadır. Bu kontekstdən, real sektorun inkişafı eyni zamanda qeyri-neft sektorunun ixrac qabiliyyətinin artırılması və ÜDM, büdcə gəlirlərinin formalaşması ilə yanaşı, ümumi ixracatın həcmində şaxələnməyə nail olmaq məqsədi daşıyır. Bütün bunları nəzərə aldıqda Azərbaycanda diversifikasiyalaşdırılmasının maliyyə təminatı mexanizminin tədqiqi prosesinə başlaya bilərik.

Azərbaycan, sabit məzənnəyə sahib;neftdən çox asılı bir ölkədir. Bu səbəbdən təhlillərimizdə məzənnədən daha çevik və mənalı bir şey istifadə etmək istərdik. Birincisi, qeyri-neft real effektiv məzənnəsindən istifadə edəcəyik. Qeyri-neft

sektorunu təmsil edir və daha dəyişkəndir. Real iqtisadiyyatın əsaslarından biri hesab olunur. 2010-cu ilin yanvarından 2020-ci ilin mart ayına qədər olan dövrü əhatə edən bir aylıq makroiqtisadi dəyişənlər toplusumuz var. 123 müşahidəmiz var və bunlardan 100-nü qeyri-neft real effektiv məzənnəsini asılı bir dəyişkən kimi, digər iki (qeyri-neft real ÜDM və illik cari dovrde istehlakci qiymetleri indeksi) dəyişkənləri izahlı dəyişənlər kimi düşünə bilərik.

$$CPI=Ct/C0$$

CPİ- cari dövrde istehlakci qiymətləri indeksi

Ct –cari dövrde bazar qiyməti

C0 –baza dövründə bazar qiyməti

**Cədvəl 2.İstehlakçı qiymətləri indeksi**

| Y Year/Month | V Value |
|---|---|
| **2018/12** | 156.93 |
| **2019/1** | 157.24 |
| **2019/2** | 158.18 |
| **2019/3** | 159.13 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
https://www.stat.gov.az/source/price_tarif/?lang=en

**Cədvəl 3: Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı**

| Emal sənayesnin sahələri | 2019-cu ildə istehsal edilmişdir, min manat | 2018-ci ilə nisbətən (sabit qiymətlərlə), faizlə | Emal sənayesində xüsusi çəkisi |
|---|---|---|---|
| **Cəmi emal sənayesi** | **11765299.7** | **111.5** | **100%** |
| Qida məhsullarının istehsalı | 3448406.4 | 110.8 | 29.3% |
| Neft məhsullarını istehsalı | 3129193.4 | 96.8 | 26.6% |
| Tikinti materiallarının istehsalı | 771712.4 | 105.0 | 6.6% |
| Kimya sənayesi | 562525.7 | 125.6 | 4.8% |
| Metallurgiya sənayesi | 514702.9 | 90.5 | 4.4% |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 482707.1 | 127.5 | 4.1% |
| İçki istehsalı | 437844.0 | 141.4 | 3.7% |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 400349.2 | 122.0 | 3.4% |
| Toxuculuq sənayesi | 299047.4 | 133.2 | 2.5% |
| Tütün məmulatlarının istehsalı | 248911.0 | 180.7 | 2.1% |
| Hazır metal məmulatların istehsalı | 248748.3 | 180.0 | 2.1% |
| Maşın və avadanlıqların istehsalı | 213864.8 | 101.0 | 1.8% |
| Elektrik avadanlıqlarının istehsalı | 188135.6 | 101.1 | 1.6% |
| Poliqrafiya məhsullarının istehsalı | 138476.1 | 142.2 | 1.2% |
| Mebellərin istehsalı | 115012.4 | 129.5 | 1.0% |
| Geyim istehsalı | 109049.0 | 122.6 | 0.9% |
| Kağız və karton istehsalı | 107178.9 | 125.5 | 0.9% |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 93339.6 | 82.3 | 0.8% |
| Kompyuter, elektron və optik məhsulların istehsalı | 88644.2 | 151.8 | 0.8% |
| Zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 70349.1 | 113.3 | 0.6% |
| Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 66289.6 | 182.9 | 0.6% |
| Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 19401.3 | 97.1 | 0.2% |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 8300.8 | 82.6 | 0.1% |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsi.

https://www.stat.gov.az/source/industry/

Tikinti sektoru neft gəlirlərinə daha həssas sektorlardan olmaqla, xüsusi ilə də, 2000-ci illərin əvvəllərindən etibarən ən dinamik inkişaf edən sahələrdən birinə çevrilib. Gəlirlərin yüksəlməsi fonunda alıcılıq qabiliyyətinin güclənməsi səbəbindən yaranan müasir, keyfiyyətli mənzillərə tələbat, həmçinin aqrar, nəqliyyat və sənaye kimi sektorlarda həyata keçirilən islahatlar səbəbindən tikinti-quruculuq işlərinin sürətlənməsi tikinti sektorunda dinamikanın əsas faktorlarından idi. 1997-ci ildə dövlət inhisarçılığının sona çatması ilə özəl sektorun tikinti sahəsində aktiv fəaliyyətinə imkan yarandı.

Göründüyü kimi 2015-ci ildə tikinti sektorunda dövlət mənşəli kapital axınının azalmasına baxmayaraq, bu sektor yenə 12,1 faizlik xüsusi çəki ilə iqtisadiyyatın

mühüm istiqamətlərindən biri olub. Başqa sözlə, sektor qeyri-neft iqtisadiyyatının inkişafında lokomotiv rolunu qorumaqdadır. Yuxarıda da qeyd etdiyimiz kimi sektorun inkişafında dövlət təşəbbüskarlığı əhəmiyyətli amillərdəndir. 2015-ci ildə əsas kapitala dövlət mənşəli investisiya axınında 36,3%, yaxud 3,3 milyard manat azalma olsa da, qeyri-dövlət bölməsində 1,65 milyard manat və yaxud 19,4% artım baş verib ki, bu da ümumən əsas kapitala investisiya qoyuluşunun həcminin kəskin azalmasının qarşısını alıb. Müstəqilliyin ilk illərində iqtisadi tarazlığın pozulması və uzunmüddətli böhran həm dövlət və həm də özəl mənşəli infrastruktur təyinatlı investisiyaları mümkünsüz edirdi. Həmçinin təklifin yoxluğu və əhalinin zəif istehlak gücü daşınmaz əmlak bazarında staqnasiya vəziyyətinin yaranmasına səbəb olmuşdu. Qeyd edək ki, bu dövr üçün xarakterik xüsusiyyətlərdən biri kimi bank sektorunun zəif inkişafı, kapital çatışmazlığı kimi faktorlar da tikinti sektorunda özəl təşəbbüskarlığı zəiflədirdi. Nəticədə tikinti sektorunda uzun müddət davam edən durğunluq böyük həcmdə ödənilməyən tələb formalaşdırdı. 2000-ci illərin əvvəllərindən başlayaraq iqtisadi inkişafın sürətlənməsi, əhalinin gəlirlərinin yüksəlməsi və buna uyğun bazar şərtlərinin diktəsi ilə tikinti sektorunda canlanma başladı. Çünki biznes illərlə sektorda təklifin olmamasının tələbini yaradacağını proqnozlaşdıra bilirdi. Beləliklə, 2000-ci illərin əvvəllərində, əsasən Bakı və ətraf qəsəbələrdə olmaqla ölkə boyu iri inşaat layihələrinin icrasına start verildi.

Statistik təhlil zamanı aydın olur ki, 2002-2004, 2006-2008 və 2010-2013-cü illəri əhatə edən dövrlərdə tikinti sektorunda yaradılan əlavə dəyər sürətli artım nümayiş etdirib ( Ahmadov A., 2012) .2002-2004-cü illəri ölkə üzrə tikinti bumu başlanmışdı. Buna səbəb Bakı-Tbilisi-Ceyhan neft boru kəməri daxil olmaqla, neft infrastrukturunun yaradılması fəaliyyətləri və mənzil inşaat sektorunda başlayan canlanma idi. Qeyd edək ki, 2002-2004-cü illər ərzində tikinti sektoruna qoyulan sərmayənin 73,3%-i neft sektorunun, 26,7%-i isə qeyri-neft sektorunun payına düşürdü. Təkcə 2002-ci ildə neft sektorunda tikinti təyinatlı investisiyaların həcmi əvvəlki illə müqayisədə 2,1 dəfə artıb.

Gəlirlərin artması və dayanıqlı inkişaf fonunda 2005-ci ildən sonra tikinti sektoruna qeyri-neft təyinatlı investisiyalarının həcmi daha da genişləndi. Beləliklə tikinti sektorunda ikinci böyümə dövrü iri neft gəlirləri fonunda lakin, qeyri-neft istiqamətli investisiyalar hesabına baş verib. Lakin, onu da vurğu-lamaq lazımdır ki, qeyd edilən inkişaf trendinin formalaşmasında dövlət tərəfindən infrastruktura yönəldilən sərmayələr mühüm rol oynayıb.

Ümumilikdə qeyri-neft təyinatlı əsas vəsait qoyuluşları 2005-ci ildə 65,8%, 2006-cı ildə 40,3%, 2007-ci ildə 39,5% və 2008-ci ildə isə 76,4% olmaqla davamlı artıb. Göründüyü kimi, müvafiq göstərici 2008-ci ildə maksimum səviyyəyə yüksəlib. Tikinti sektorunun ikinci inkişaf dövrü yuxarıda da qeyd etdiyimiz kimi, daha çox dövlət tərəfindən əsas kapitala yönəldilən vəsaitlərin artımı dövrünü xarakterizə edir (Ahmadov, 2012). Beləliklə, 2000-2015-ci illər ərzində əsas kapitala yönlədilən ümumi investisiyanın həcmi 16,5 dəfə artıb. Müvafiq olaraq həmin dövr ərzində neft sektoru üzrə artım 14,2%, qeyri-neft sektoru üzrə isə 19 dəfə olub.

Müstəqilliyin ilk illərində əsas kapitala investisiya qoyuluşunun əsas hissəsi xarici investisiyalar təşkil edirdisə, sonradan bu nisbət daxili investisiyaların xeyrinə dəyişib. Əgər 2002-ci ildə əsas kapitala yönəldilən daxili investisiya-ların həcmi 25,9% olmuşdusa, 2009-cu ildə 78,7%-dək yüksəlmişdi. 2009-2014-cü illərdə müvafiq göstərici 70%-dən artıq olsa da, 2015-ci ildə dövlət xərcləmələrində konsolidasiya bu xarici mənşəli investisiyaların payının 15,4 faiz bəndi artmasına səbəb olub.

Daxili investisiyaların artım dinamikası ilə dövlət investisiyalarının artım dinamikası arasında ciddi korrelyasiya müşahidə edilib. Belə ki, 2005-ci ildə dövlət investisiyalarının həcmi əvvəlki illə müqayisədə 2 dəfə artıb ki, nəticədə yerli investisiyaların həcmi həmin il 10 faiz bəndi irəliləyib. Müvafiq göstəricilər 2006-cı ildə 2,1 dəfə və 10 faiz bəndi, 2007-ci ildə 2,2 dəfə və 15,3 faiz bəndi artıb. Müqayisə üçün qeyd edək ki, 2004-cü ildən fərqli olaraq, 2007-ci ildə dövlət tərəfindən əsas kapitala yönəldilən investisiyaların həcmində 9 dəfə artım olmuşdu. 2008-ci il qlobal

maliyyə böhranı fonunda neftin ucuzlaşması dövlət gəlirlərinin azalmasına səbəb oldu. Beləliklə, 2009-cu ildə dövlət investisiya qoyuluşlarının həcmi 2008-ci ilə nisbətən 22,5% azaldıldı. Beləliklə, uzunmüddətli böyümədən sonra ilk dəfə 2009-cu ildə tikinti sektorunda 8,2 faizlik daralma baş verdi .

Eyni zamanda onu da qeyd edək ki, bazar iqtisadiyyatına keçidin ilk illərində ilkin kapital çatışmazlığı, bazarın faktiki iflası səbəbindən tələbi ödəyəcək hər hansı bir təklifin olmaması və qonşu ölkələrlə azad ticarət üçün məhdudiyyətlərin tamamilə aradan qaldırılması qısa müddət ərzində ticarət istiqamətli təşəbbüslərin artmasına səbəb oldu. Bu sahədə fəaliyyət istənilən formada və ölçüdə aparıla bildiyi üçün xüsusi ilə də işsizliyin sürətlə artdığı dövrdə ticarət fəaliyyətini bir sıra hallarda ailələr üçün yeganə çıxış yolu idi. Uzun müddət fərdi təşəbbüskarlığın məhdudlaşdırıldığı, ticarətin, xüsusi ilə də, aşağılandığı bir cəmiyyət üçün yeni çağırışlar cəlbedici görünür və əksər insanlar üçün biznesə başlamanın ilk mərhələsi olaraq dəyərləndirilirdi.

Qeyd edək ki, inkişaf etməkdə olan ölkələrdə ticarət şərtlərinin liberallaşdırlması işsizlik və infilyasiya kimi mühüm problemin həllində qısa müddət ərzində uğurlu nəticələr səbəb olur. Azərbaycan müstəqilliyin ilk illərində oxşar yanaşmadan istifadə edərək iqtisadi aktivliyi və məşğulluğu müəyyən qədər təşviq edə bilmişdir.

Ticarət sektorunun 2015-ci il üçün əsas iqtisadi göstəriciləri: Azərbaycanın coğrafi mövqeyi qlobal nəqliyyat sistemi üçün kifayət qədər əhəmiyyətli olmaqla yerli səviyyədə sektorun inkişafına böyük təkan verməkdədir. Ölkənin geostrateji mövqeyi Avropa və Asiya arasında əsas nəqliyyat dəhliz olma potensialını digər rəqibləri ilə müqayisədə daha üstün edir. Müstəqillik illərində bu istiqamətdə həyata keçirilən dövlət siyasəti nəticəsində Avropa-Qafqaz-Asiya dəhlizi ilə yük daşımaları 2014-cü il ərzində 58,2 milyon ton olub ki, bu da 2000-ci illə müqayisədə 2 dəfə artıq, sərnişin daşımaları sə 307 milyon nəfər və yaxud müqayisə dövrünə nisbətən 2,1 dəfə artıq olub.

Müstəqil Azərbaycanın iqtisadi siyasətində nəqliyyat sektoru daim prioritet istiqamətlərdən olmaqla, daha çox ölkənin strateji əhəmiyyətinin artırılması siyasətinin bir hissəsi hesab edilib. Nəticədə sektor ölkə iqtisadiyyatının ən sürətli inkişaf edən sahələrindən birinə çevrilib. Buna baxmayaraq, bir sıra hallarda infrastrukturun yenidənqurulması işlərinin səmərəsizliyi, uzunmüddət-liliyi və bu sahədə dövlət siyasətini həyata keçirən qurumların səriştəsiz fəaliyyəti ölkənin tranzit potensialından yararlanma səviyyəsinə mənfi təsir göstərir. Nəzərə alsaq ki, 2005-2015-ci illər ərzində dövlətin əsas vəsait qoyuluşlarınım böyük bir hissəsi nəqliyyat infrastrukturunun yenilənməsinə sərf edilib, hələ də ölkə müasir standartlara uyğun nəqliyyat infrastrukturuna malik deyil. Paralel olaraq xüsusi ilə də 2015-ci ildən əvvəlki illərdə gömrük sisteminin beynəlxalq tələblərlə uzlaşmaması, optimallaşdırılmamış tariflər nəqliyyat sektorunda böyümə tempinə mənfi təsir etməklə yanaşı, ölkənin tranzit əhəmiyyətini də zəiflədirdi. Bundan başqa, nəqliyyat sektorunun ayrı-ayrı halqalarında (hava nəqliyyatı, dəmiryolu və dəniz nəqliyyatı) dövlət inhisarının olması bu sahədə rəqabət mühitini zəiflədir. Nəqliyyat sektorunun ayrı-ayrı subsektorları arasında kordinasiyanın zəif inkişaf etməsi – sərnişin və yük daşımaları üzrə davamlılığa mənfi təsir göstərir. Həmçinin bu sektorda sığorta sisteminin müasir tələblərə uyğunlaşdırılmasında müşahidə edilən gecikmə – xüsusi ilə də, tranzit daşımalar üçün sığorta əməliyyatlarının mürəkkəbliyi əlavə xərc və zaman itkisinə yol açmaqla, beynəlxalq nəqliyyat şirkətlərinin alternativ marşrutlardan istifadəsini şərtləndirir. Lakin qeyd etmək lazımdır ki, 2015-ci ildən sonrakı dövr üçün yuxarıda sadalanan problemlərin aradan qaldırılması istiqamətində icra hakimiyyəti orqanlarının fəallığı artıb.

Ölkədə sərnişindaşımanın inkişafı məqsədi ilə alternativ ictimai nəqliyyat sistemləri inkişaf etdirilməsinə və bu sahədə rəqabət mühitinin dərinləşdirilməsinə ehtiyac var. Beləliklə, təklif olunan xidmətlər üçün qiymətlər daha əlçatan ola bilər.

## 2.2.Azərbaycanda sahibkarlıq fəaliyyətinin və inzibati-idarəetmə sisteminin iqtisadiyyatın diversifikasiyalaşdırılmasına təsirinin qiymətləndirilməsi

Ölkələrin iqtisadi inkişafının və diversifikasiya dərəcəsinin öyrənilməsində müxtəlif ekonometrik modellərdən istifadə edilir. 1970-80-ci illərə kimi geniş istifadə edilən ekonometrik modellər əsasən britaniyalı iqtisadçı Keynz tərəfindən irəli sürülən nəzəri yanaşma üzərində qurulmuşdu. Həmin modellərdə makroiqtisadidəyişənlər arasındakı əlaqələr öyrənilir, onun əsasında iqtisadi siyasət təhlil edilir, gələcəyə dair proqnozlar irəli sürülürdü. Lakin 1970-ci ildən etibarən bu yanaşmaya istiqamətlənən tənqidlər artmağa başladı. Tənqidlərin əsası bundan ibarət idi ki, həmin modellər bir sıra mühüm hadisələri düzgün proqnozlaşdıra bilməmişdi. Bretton Vudz sisteminin çökməsi və 1970-80-ci illərdə dünyada baş verən neft böhranı kimi şok effekti yaradan siyasi-iqtisadi hadisələr iqtisadçılarda belə bir təəssürat yaratdı ki, daha dəqiq proqnozlaşdırıcı xüsusiyyətə malik modelin işlənib-hazırlanması mütləq şərtdir (Isayev N.A, 2017). Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının ənənəvi və mühüm sahələrindən biri hesab edilir. Buna baxmayaraq, müstəqillik illərində aqrar sektor iqtisadiyyatın digər sahələri ilə müqayisədə nisbətən zəif inkişaf edib. Beynəlxalq təcrübə göstərir ki, kənd təsərrüfatının zəif inkişaf etməsi adətən maliyyə mexanizmlərinin inkişaf etməməsi ilə əlaqədar olub . 2015-ci ildə kənd təsərrüfatı üzrə yaradılan əlavə dəyərin ölkə iqtisadiyyatında xüsusi çəkisi 6,2% və yaxud 2000-ci illə müqayisədə 9,9 faiz bəndi az olub. Lakin bu sektor hələ də ölkə üzrə məşğulluğun əsasını təmin edir. Məsələn, 2015-ci ildə məşğulluğun 36,4%-i aqrar sektorun payına düşüb.

Son 10 ili əhatə edən statistik məlumatların təhlili göstərir ki, aqrar sektorda istehsalın həcmi həmin dövr üçün təxminən 3,7 dəfə artıb. Artım fərdi sahibkarlıq, ailə kəndli və ev təsərrüfatları üzrə 3,5 dəfə olduğu halda, kənd təsərrüfatı müəssisələrinin istehsal etdikləri məhsulların dəyər ifadəsi təxminən 9,3 dəfə olub. Beləliklə, kənd təsərrüfatı müəssisələri ümumi istehsal üzrə payını 2000-ci illə müqayisədə 2015-ci ildə 5,2 faiz bəndi artıra bilib.

Ümumilikdə isə aqrar sektorda yaradılan əlavə dəyər 2005-2015-ci illər ərzində nominal ifadədə 3 dəfə artıb.

Maraqlı məqamlardan biri odur ki, 2005-2008-ci illərdə aqrar sektorda müşahidə edilən böyümə 2009-cu ildə nominal ifadədə azalıb. Halbuki Azərbaycan kənd təsərrüfatının inkişafı üçün vacib olan iqlim resurslarına sahib bir ölkədir..Buna baxmayaraq, qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirləri aqrar sferada belə hiss edilib. Lakin qısamüddətli durğunluq sonrakı illərdə yenidən böyümə ilə əvəzlənib. Bundan başqa, müəssisələr tərəfindən istehsal edilən məhsulun ölkə üzrə bitkiçilikdə xüsusi çəkisi 4,8% və yaxud 2000-ci illə müqayisədə 1,9 faiz bəndi çoxdur. Statistik təhlil zamanı aydın olur ki, kənd təsərrüfatı müəssisələri daha çox heyvandarlıq sahəsində təşəkkül tapmaqdadır. Belə ki, 2000-ci ildə müəssisələr tərəfindən istehsal edilən heyvandarlıq məhsullarının ümumi istehsalda payı 1,2% olduğu halda, 2015-ci ildə müvafiq göstərici 9,6%-dək artıb. Başqa sözlə, müəssisələr bu sahədə öz mövqeyini 8,4 faiz bəndi gücləndirə bilib. Bu isə risklərin bitkiçiliyə nisbətən az, mənfəət normasının isə yüksək olması ilə izah edilir.

Göründüyü kimi hazırda aqrar sektorda çalışanların sayı 2005-ci ilə nisbətən 124,8 min nəfər və yaxud 8% çoxdur. Buna baxmayaraq, sektorun ümumi məşğulluqda payı müvafiq dövr ərzində azalıb. Belə ki, 2005-ci illə müqayisədə 2014-cü ildə kənd təsərrüfatının ümumi məşğulluqda xüsusi çəkisi, 2,3% bəndi geriləyərək 36,4% olub. Ancaq sektor mövcud şərtlər daxilində məşğulluqda öz dominantlığını qorumaqdadır. Hazırda ölkə üzrə hər 100 nəfər məşğul insanın 37-si aqrar sahədə çalışır.

Qeyd etmək lazımdır ki, 2004-cü ildə Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı arasında "Aqrar Sahəyə İnvestisiya" adlı layihə təsdiq edildi. Beləliklə, qısa zamanda ölkə ərazisində kənd təsərrüfatının maliyyə əlçatanlığını artıracaq 78 bank filialı istifadəyə verildi. Qeyd edilən layihənin icrası sonralar aqrar sektorda yeni iş yerlərinin yaradılmasında əhəmiyyətli təsirə malik oldu. Nəticədə 2005-ci ildən başlayaraq bu sahədə məşğulların sayında ciddi artım oldu.( http://www.e-qanun.az/framework/1231)

Qeyd edək ki, araşdırma dövrünu əhatə edən 2005-2015-ci illər ərzində kənd təsərrüfatı təyinatlı investisiyalar böyük həcmdə artıb. Məsələn, 2005-ci illə

müqayisədə 2012-ci ildə sektor üzrə əsas kapitala yönəldilən vəsaitlərin həcmi 16 dəfə artaraq 648 milyon manat olub. Lakin sonrakı illərdə bu istiqamətdə vəsait qoyuluşlarında davamlı geriləmə müşahidə edilir. Nəticədə 2015-ci ildə sektor üzrə müvafiq göstərici 355 milyon manat və yaxud Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Aqroparkların Yaradılması" haqqında 2014-cü il 16 aprel tarixli fərmanı aqrar sahədə daha müasir beynəlxalq təcrübənin tətbiqini sürətləndirmək, sektorun istehsal və ixrac potensialından səmərəli yararlanmaq məqsədi daşıyır .Aqroparklar müxtəlif steykholderlərin birgə fəaliyyət göstərdiyi platformalardan biri kimi, istehsal imkanlarının optimallaşdırılması ;səmərəliliyin maksimum həddə artırılması ;sahibkarlığın inkişaf etdirilməsi üçün vacibdir.

Modeldə istifadə edilən düsturlar aşağıda göstərilmişdir (qeyd: modelləşdirmə zamanı birdən çox tənlik və düsturdan istifadə edilir).

VAR modeli, k dəyişənli çoxluğun (daxili dəyişənlər) eyni nümunə periodundakı (t = 1) yalnız keçmiş dinamikasının xətti funksiyası olaraq inkişafıdır. Dəyişənlər, k × 1 vektor yt də toplanır (i. işçi yi,t dəyişən yi nin t anın-dakı müşahidəsi). Məsələn, i. dəyişən GDP isə yi,t, t GDP'nin t dəki dəyəridir. (Howard J. Seltman, 2015)

(Sadələşdirilmiş) bir p. mərtəbə VAR (VAR (p)):

yt = c+A1yt-1+A2yt-2+............ +Apyt-p+et,

(C: k × 1 sabit vektor (kəsişmə), Ai k × k matrix (hər i = 1, p üçün) və et:k × 1 səhv istiqamətini aşağıdakıları təmin edir:

1. E(et) = 0 – hər səhv termini 0 (sıfır) ortalamalıdır;

2. E(et e"t) = Ω – səhv terminlərinin eynivaxtlı matrix Ω 'dır (k × k positive definite matris);

3. E(et e"t-k) = 0 – hər hansı sıfırdan fərqli k - zaman qarşısında korrel-ya-siyada deyil; xüsusilə də, fərdi səhv halında heç bir ardıcıl korrelyasiya yoxdur.

1. l-keçmiş zaman periodu yt−l y-in l-ci laqı adlanır. Buna görə a p.-mərtəbə VAR-a bir p gecikməli VAR - da deyilir.

İstifadə edilən bütün dəyişənlər eyni inteqrasiya səviyyəsində olmalıdır. Buna görə də aşağıdakı hallar qaçılmazdır:

Bütün dəyişənlər I (0) (sabit): bərabərlik halındadır, yəni vahid VAR səviyyəsi.

Bütün dəyişənlər, d> 0 olduğu halda I (d) (qeyri-sabit):

Dəyişənlər sabitdir: bu zaman korreksiya termini VAR-a daxil edil-məli-dir. Bu zaman Model, bir Vector səhvdüzəltmə modeli (VECM) olur ki, bu model məhdud imkanlı VAR olaraq anlaşıla bilər;

Dəyişənlər qeyri-sabitdir: Dəyişənlər, d dəfə çıxarılmalı və fərq VAR-da əksini tapmalıdır.

qısa matriksin düsturu:

VAR(p)-nin qısa matriksinin düsturu:

Y=BZ+U

Nümunə:

İki dəyişənli bir VAR (1) matriksinin düsturu (qısaldılmış düstur)

y1t = c1 + A1,1 A1,2 y1,t-1 + e1,t

y2t c2 A2,1 A2,2 y2,t-1 e2,t (4.3)

və ya buna bərabər olan aşağıdakı iki tənlik sistemi:

y1,t = c1 + A1,1 y1,t-1 + A1,2y2,t-1 + e1,t (4.4)

y2,t = c2 + A2,1 y1,t-1 + A2,2 y 2,t-1 + e2,t (4.5)

Modeldə hər bir dəyişən üçün bir tənlik olduğuna diqqət etmək lazımdır. Ayrıca hər bir dəyişənin həmin andakı (t zamanı) müşahidəsinin, VAR-dakı digər hər bir dəyişənin gecikmələrinin yanında öz gecikmələrinə bağlı olduğuna diqqət edilməlidir.

VAR(p)-nin VAR(1) olaraq yazılışı:

Əgər p gecikməli VAR daima sabit olaraq asılı dəyişəni uyğun şəkildə təqdim edərsə 1 gecikməli VAR olaraq yazıla bilər. Transformasiya edən tənlikləri başa çatdırmaq üçün yalnız yeni VAR (1) asılı dəyişən VAR (p) dəyişən yığılması qalır.

Nümunə üçün VAR(2) modeli aşağıdakı düsturla

yt = c + A1 yt-1 A2yt-2 + et (4.6)

VAR (1) modelinə çevrilə biler

yt = c + A1 A2 yt-1 + et

yt-1 0 I 0 yt-2 0

sabit VAR formulu analitik təhlillərə daha uyğun və konret nəticələri əldə edilməsinə imkan yaradır.

Sadələşdirilmiş VAR formulu:

Bu zaman VAR formulunu əvvəlcədənn B0-ın tərsinə vurmaq lazımdır:

Yt = B0-1cO + B0-1B1yt-1 + B0-1B2yt-2 ++ B0-1Bpyt-2p + B0-1et ,

və əlavə olaraq

B0-1cO = c, B0-1Bi = Ai, i = 1 p və B0-1et = et

Beləliklə, hər bir azalan period (p) üçün nəticələr əldə olunur

yt = c + A1yt-i + A2yt-2 +.......+ Apyt-p + et

Sadələşdirilmiş formulda, sağdakı bütün dəyişənlər t vaxtında əvvəlcədən məlumdur, sağ tərəfində heç bir zaman t endogen dəyişənlər var ki, bunlar modeldə əksini tapan heç bir dəyişənin dinamikasına təsir etmək imkanında deyil.

Y = BZ + U · B üçün çoxdəyişənli azalan indiqatorlar tətbiq edilir.

B = YZ (ZZ) -1

yuxarıdakı bərabərliyin alternativi isə aşağıdakıdır:

Vec(B) = ((ZZ)-1 Z*İK)Vec(Y)

Müzakirə mövzusu izahedici dəyişənlər eyni olduğu üçün, çox dəyişənli EKK, hər bir bərabərliyə ayrı-ayrı tətbiq olunan ordinant EKK (OLS) ehtimalına bərabərdir.

VAR modelin tətbiq edilməsi üçün ilk olaraq bir-birinə təsir imkanlarına malik dəyişənlərin siyahısı hazırlanır. Lakin heç də bütün mümkün dəyişənlər modelə daxil edilmir. Çünki həddindən artıq dəyişənin istifadə edilməsi ümumi işi mürəkkəbləşdirə bilər. Məhz buna görə də model istifadəçiləri dəyişənləri seçərkən müəyyən iqtisadi nəzəriyyəyə, yaxud hipotezə əsaslanmalıdırlar. Nəzəriyyələr modeldən istifadəsi formasının müəyyən edilməsində əhəmiyyətli rol oynayır.

Burada dəyişənlər ekzogen və endogen tiplərə bölünür. Əgər ekzogen dəyişənlərə büdcə xərcləmələri, vergidən azadolmalar və subsidiyalar kimi dəyişənlər daxildirsə, endogen tipə model çərçivəsində hərəkət edən dəyişənlər aid edilir .Bu modeldən istifadə edərək bir sıra mühüm suallara cavab tapmaq mümkündür. Məsələn, bir indiqatorun əvvəlki dəyərinin indiki dəyərinə, habelə başqa dəyişənin keçmiş və indiki dəyərinə necə təsir etdiyini bu model vasitəsilə müəyyən etmək mümkündür Eyni zamanda hər bir sektorun ÜDM-in yaradılması və xarici investisiyanın cəlb edilməsindəki rolu da bu model vasitəsilə ölçülə bilər.

*Sektorlar üzrə iqtisadi siyasətin ekonometrik qiymətləndirilməsi.*

Modelləşdirmə zamanı dəyişənlər aşağıdakı şəkildə işarələnib:

•ÜDM, Mln. AZN-y

•Uçot dərəcəsi, %-x1

•M0 pul aqreqatı-x2

•M3 pul aqreqatı-x3

•İnvestisiya-x4

•Dövlət xərcləmələri-x5

•Vergi güzəştləri-x6

Nəticə-Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)*X6(-1) + C(1,14)*X6(-2) + C(1,15)

Dəyişənlər daxil edildikdən sonra:

Y = - 0.539961363264*Y(-1) + 6216.22809145*X1(-1) + 0.0970701652403*X2(-1) - 0.00288709629768*X3(-1) + 0.541457645785*X4(-1) + 0.355728951314*X5(-1) - 110.012070526*X6(-1) + 344.52652878

VAR modelinin nəticələrinin təhlili göstərir ki, ötən illər ərzində Mərkəzi Bank tərəfindən həyata keçirilən monetar siyasət (uçot dərəcəsi və M0 pul aqreqatı) tikinti sektorunda ümumi daxili məhsul istehsalına müsbət təsir edib. Modeldə əmsallar uyğun olaraq +6216.22809145 və +0.0970701652403-dir. Çünki Mərkəzi Bank tərəfindən uçot dərəcəsinin azaldılması sektorun ucuz kapitala çıxış imkanı yaradıb ki, bu da öz növbəsində tələbatın yüksəlməsinə səbəb olub. Eyni zamanda pul kütləsinin artırılması da sonda alıcılıq qabiliyyətini artırmaqla sektorun inkişafında dəstəkləyici faktor olub.

Modelin nəticələrindən aydın olur ki, investisiya və dövlət xərcləmələri kimi istiqamətlərdə davamlı artım tİkinti sektorunun böyüməsində katalizator rolunu oynayıb. Xüsusi ilə dövlət vəsaitləri hesabına tikinti sektorunda mal və xidmətlərə irihəcmli tələb formalaşıb (O.N.Aras, 2017, s. 75).

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanda tikinti sektorunun inkişafı üçün böyük potensial var. Çünki ötən dövr ərzində sürətli inkişaf yolu keçməsinə baxmayaraq, bu sahədə mövcud imkanlar hələ də zəif istifadə edilib. Sektorun əsas problemlərindən biri xammal məqsədli idxal səviyyəsinin yüksək olmasıdır. Daha yaxşı olar ki, tikinti sektorunda idxal asılılığının azaldılması və daxili tələbin yerli istehsal hesabına təmin edilməsi məqsədi ilə təşviqedici metodlardan istifadə edilsin. Bu yolla paralel olaraq məşğulluğun artırlması sənayenin inkişafı və sektorun xarici faktorlardan asılılığının azaldılmasına nail oluna bilər.

<u>Ticarət sektorunda</u> həyata keçirilən iqtisadi siyasətin VAR modeli vasitəsi ilə qiymətləndirilməsi üçün aşağıdakı tənlik tətbiq edilib.

Y = C(1,1)*Y(-1) + C(1,2)*Y(-2) + C(1,3)*X1(-1) + C(1,4)*X1(-2) + C(1,5)*X2(-1) + C(1,6)*X2(-2) + C(1,7)*X3(-1) + C(1,8)*X3(-2) + C(1,9)*X4(-1) + C(1,10)*X4(-2) + C(1,11)*X5(-1) + C(1,12)*X5(-2) + C(1,13)

863390896 Nəticə--Y =- 0.140048691622*Y(-1) - 0.591170345892*Y(-2) + 963.027844251*X1(-1) + 0.00421964822695*X2(-1) + 0.0307917792981*X3(-1) + 12.0863858221*X4(-1) - 53.0297850872*X5(-1) + 363

Beləliklə qeyd edə bilərik ki, fiskal siyasətin ticarət sektoruna təsirləri bir mənalı deyil. Belə ki, model hökumət xərcləmələrini sektor üzrə ÜDM istehsalında müsbət (12.0863858221), tətbiq edilən vergi güzəştlərinin təsirin aşağı səviyyəli olaraq dəyərləndirir. Bundan başqa, VAR modeli Mərkəzi Bank tərəfindən 2015-ci ilədək aşağı faizli uçot dərəcəsinin tətbiq edilməsi və genişləndirici pul siyasəti (MO) ticarət sektorunda ÜDM və məşğulluğa dəstəkləyici təsir göstərib. Paralel olaraq investisiya siyasəti də davamlı artan istiqamətli olduğu üçün sektorda əlavə tələb formalaşdırmaqla böyüməni dəstəkləyib.

<u>Maliyyə və sığorta sektorunda iqtisadi siyasət</u>

VAR Modeli – dəyişənlər daxil edilməklə

Y = 0.320832232042*Y(-1) - 0.63280402582*Y(-2) + 491.320802989*X1(-1) - 0.0376514216129*X2(-1) + 0.0181970780616*X3(-1) + 7.43222955088*X4(-1) + 4.13660901769*X5(-1) - 35.8699061226

Mərkəzi Bank tərəfindən tətbiq edilən yuxarı uçot dərəcəsi, müxtəlif yardımlar maliyyə-bank sektorunda gəlirləri əhəmiyyətli dərəcədə azaldır. Qeyd edək ki, xüsusi ilə son iki il ərzində bank sektoruna ayrılan yardımlar (yardımlar daha çox dövlət banklarının sağlamlaşdırılması məqsədi daşıyır) kifayət qədər böyük məbləğlərlə ifadə olunur. Yüksək faizlər real sektorda təşəbbüskarlığın zəifləməsinə və sektorlar üzrə inkişafa əsas maneələrdəndir. Sektor üzrə empirik və statistik təhlillərdən aydın olur ki, modelin nəzərə almadığı aşağıdakı faktorlar da əhəmiyyətlidir:

a) qlobal maliyyə bazarlarına birbaşa çıxış imkanlarının məhdudluğu alternativ maliyyələşmə mənbələrininin zəif şaxələndirilməsi bu sahədə rəqabətin dərinliyinə mənfi təsir edir;

b) bankların innovasiya meyilliyi və təşəbbüskarlığı kifayət qədər zəif qiymətləndirilir. 2014-cü ilə qədər sektorda çox sadə inkişaf alqoritmi müəyyənləşmiş, portfelin genişləndirilməsi və daha çox istehlak kreditlərinin verilməsi yolu ilə iqtisadiyyata sürətlə injeksiya edilən neft vəsaitlərindən daha çox pay alınmışdır.

Əksər banklar üçün yeni məhsullar təklif etmək, innovativ metodlara əl atmaq üçün mühüm səbəb yox idi. Bütövlükdə bu mühit zəif rəqabətlilik və liberal olmayan mühitdən qaynaqlanır;

c) genişləndirilmiş pul-kredit siyasətinin həyata keçirilməsi və xüsusi ilə də, real sektorun prioritet sahələri üçün aşağı faizli maliyyə əlçatanlığının artırılmasından ötrü təşviqedici mexanizmlər zəif təşəkkül tapıb.

<u>Sənaye sektorunda iqtisadi siyasət</u>

VAR Model – dəyişənlər daxil edilməklə

Y = 0.793581554491*Y(-1) - 0.255259572752*Y(-2) - 831.988321199*X1(-1) - 0.043568742713*X2(-1) + 0.00313042296063*X3(-1) + 0.170376306032*X4(-1) + 0.146180598545*X5(-1) - 19.6931277687*X6(-1) + 198.387144846

Nəqliyyat sektoru və makrosiyasət arasında korrelyasiyanın qiymətləndirilməsini həyata keçirən VAR modelinin nəticələrindən məlum olur ki, ötən dövr üçün bu sahəyə yatırılan investisiyalar və dövlət xərcləri (əsas vəsait qoyuluşları) sektor üzrə ÜDM istehsalına müsbət təsir göstərib. Həmçinin modelin nəticələrindən məlum olur ki, nəqliyyat sektoru digər sektorlarla mü-qaysədə son illər ölkədə icra edilən investisiya siyasətindən daha çox faydalana bilib Lakin model tətbiq edilən vergi güzəştlərinin təsirini aşağı səviyyəli qiy-mətləndirib (- 19.6931277687). Belə ki, nəqliyyat sektorunda inkişaf daha çox tarif rüsum siyasətindən asılı olduğu üçün vergi güzəştləri bir sıra hallarda gözlənilən nəticənin əldə edilməsi üçün kifayət etmir.

Bir sıra məsələlərdə ekspertlər VAR modelinin nəticələrini təsdiqləyir. Belə ki, mütəxəssislərin fikrincə, həyata keçirilən layihələr və bu istiqamətdə mövcud siyasət sektorda yaradılan ÜDM-ə müsbət təsir göstərir. Bundan başqa, qeyd etmək lazımdır ki, hazırda nəqliyyat sektorunda icrası davam edən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi, Ələt dəniz limanı və Trans Xəzər kimi layihələrinin tamamlanması gələcəkdə bu sektorun ÜDM-nin artmasını şərtləndirəcək.

Kənd təsərrüfatında iqtisadi siyasət

VAR Model – əmsallar daxil edilməklə:

Y = - 0.245318909688*GDP(-1) - 1.17407626991*GDP(-2) - 1460.26566609*RR(-1) + 3872.82077561*RR(-2) + 0.119809455735*M3 (-1) - 0.0725276357086*M3(-2) + 0.760913893838*Inv(-1) + 0.4181928638*Inv(-2) - 0.0721744939713*Gov_S(-1)+0.926157471465*Gov_S(-2) + 0.26488802228*Sub(-1) - 0.628585358896*Sub(-2) - 380.36597605*Tax_E (-1) + 168.232445832*Tax_E(-2) + 622.568130993

Modeldə verilən R və R asılı dəyişənlərinin qiymətləri ÜDM üçün uyğun olaraq 0.863225 ve 0.801456-dır. Bu kifayet qədər qaneedici olsa belə, yeni sektorda istehsal olunan ÜDM-in həcmi ilə yuxarıda qeyd olunan X 1-dən 6-ya qədər olan dəyişənlər üzrə həyata keçirilən siyasətlər (fiskal ve monetar siyasətlər) arasında bir korrelasiya əlaqesi olduğunu görsətir. Modelin nəticələrindən aydın olur ki, vergi güzəştləri aqrar sektorda yardılan ÜDM-ə müsbət təsir göstərir. Xatırladaq ki, sektorun inkişafına hədəflənən vergi güzəştlərinin zamanı 2013-cü ilin sonunda başa çatsa da, müddət əlavə olaraq 5 il müddətinə və yaxud 2018-ci ilin sonunadək artırılıb. Beləliklə, növbəti 4 il müddətində kənd təsərrüfatı məhsullarının istehsalı gəlir, mənfəət, dövriyyə, sadələşdirilmiş, əmlak və s. vergilərdən azaddır ki, bu da sektorun inkişafı üçün müsbət amil hesab edilməlidir. VAR modeli aqrar sektorun uçot dərəcələrinə qarşı çox həssas olduğunu göstərir. Yəni faiz dərəcələrindəki dəyişiklik (azalma) Kənd Təsərrüfatında istehsal olunan ÜDM-ə müsbət təsir göstərmək imkanına malikdir. Ümumilikdə isə sektorun maliyyə əlçatanlığının artırılması inkişaf üçün mühüm məqamlardan hesab edilir. Aqrar sektora investisiyalar digər sahələrlə müqayisədə yaradılan əlavə dəyərə daha ciddi təsir göstərib. Bunun səbəbi isə son on ildə bu sahəyə investisiya axının həcmində artımın digər sahələri üstələməsi hesab edilir. Belə ki, 2015-ci ildə ölkə üzrə əsas kapitala yönəldilən investisiyalarda sektorun payı 0,7% olduğa halda 2014-cü ildə müvafiq göstərici 2,1%-dək artıb. 2010-cu il isə sektora investisiya axını 4,4% olmaqla maksimum səviyyəyə yüksəlib. Lakin investisiyaların artım sürəti və ÜDM-in böyüməsi arasında böyük fərq qalmaqdadır.

Simple Linear Regression (SLR) iki davamlı dəyişən arasındakı əlaqəni öyrənmək və ümumiləşdirmək üçün imkan yaradan və iqtisadi modeləşdirmədə geniş tətbiq edilən statistik metodlardan biridir Statistikada SLR vahid izahedici dəyişəni olan xətti reqressiya modelidir .Başqa sözlə, bir asılı və bir də müstəqil dəyişəni olan ikidəyişənli korrelyasiyadan bəhs edir .Belə ki, bu model ikidəyişən arasında əlaqəni tətqiq etməyə və ümumiləşdirməyə imkan verir. Bu münasibət riyazi olaraq aşağıdakı kimi ifadə olunur:

Reqressiya modelinin nəticələrinə görə P> |t| indeksi ÜDM üzrə 0.000 olaraq müəyənləşib. Beləliklə, ölkə üzrə ÜDM-in 100-lük artımı kənd təsərrüfatı ÜDM-nin 9,7% artması ilə nəticələnir. Başqa sözlə, ÜDM və kənd təsərrüfatı ÜDM-i arasında 1/10 nisbətində funksional bağlılıq var. Qeyd edək ki, bu göstərici neft gəlirləri fonunda sürətlə artan ÜDM-in təsirləri altında qiymətləndirilib ki, ümumilikdə post-neft dövrü üçün təsirləri daha yüksək səviyyəli proqnozlaşdırmaq olar. Bununla yanaşı, model hesab edir ki, MO (manat bazası) indiqatoru üzrə 100% artım bu sektorun ÜDM-də 0.3%, M3 (geniş pul kütləsi) üzrə 100%-lik artım isə 7,05%-lik artım yarada bilər. Göründüyü kimi, aqrar sektorda ümumi daxili məhsulun həcmi monetar siyasətdən böyük həcmdə asılıdır. Maraqlı məqam isə ondadır ki, model investisiya, subsidiya, vergi güzəştləri, uçot faiz dərəcəsi kimi faktorların aqrar sektorun inkişafına təsirini qiymətləndirə bilməyib. Belə ki, bu istiqamətlər üzrə nəticələrin maksimum indeksdən (0.14) yüksək olması qiymətləndirmə imkanını məhdudlaşdırır. Hesab edirik ki, reqressiya modelinin qiymətləndirə bilmədiyi istiqamətlər üzrə əsas səbəblər aşağıdakılardır:

Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərin 96%-dən artıq hissəsi, məhsul buraxılışının 92,7%-dən çox hissəsi fərdi sahibkarlar, kəndli, ailə-təsərrüfatlarının payına düşür. Bu isə sektorda vergi inzibatçılığının zəif inkişaf etməsinə nəticədə vergi güzəştlərinin model tərəfindən dolğun qiymətləndirə bilməməsinə səbəb olub

# III FƏSIL. İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ TƏMİNATININ MODELLƏŞDİRİLMƏSİ VƏ İDARƏEDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## 3.1.İqtisadi inkişafın diversifikasion potensialının artırılması yolları

Əvvəlki fəsildə  Azərbaycan iqtisadiyyatında cari dövr üçün dövlət siyasətinin diversifikasiya prosesinə təsirinin qiymətləndirilməsi məqsədi ilə ayrı-ayrı sektorlar üzrə VAR modelin tətbiq edilməsi, praktik nəticələrdən istifadə edərək daha təkmil şaxələndirilmə siyasətinin hazırlanması və həyata keçirilməsinə imkan verir. Belə ki, modelin tətbiqi ötən dövr ərzində həyata keçirilən monetar, fiskal və investisiya siyasətinin ayrı-ayrı iqtisadi sektorlara təsirini ölçmək imkanı yaradıb. Model qiymətləndirmə üçün aşağıdakı göstəricilərin daxil edilməsini şərtləndirir:

**Cədvəl 4: Pul aqreqatları**

| Mərkəzi Bankın uçot dərəcəsi; | MO (ödəniş üçün istifadə olunan pul kütləsinin ən likvid hissəsi); | M3 (geniş mənada  nağd vəsaitlər, müddətli və müddətsiz, manatla və sərbəst dönərli valyutada olan əmanət və depozitlər); | İnvestisiya (daxili və xarici); | Dövlət xərcləmələri; | Vergi güzəştləri |
|---|---|---|---|---|---|
| | | | | | |

**Mənbə:**Azərbaycan Respublikasının Mərkəzi Bankı. https://www.cbar.az/page-42/monetary-indicators

Göründüyü kimi, tələb edilən göstəricilər daxili və xarici iqtisadi siyasətin makro göstəricilərindən istifadə etməklə qiymətləndirməni mümkün edir.2019-2020-ci illərdə ölkədə olan pul aqreqatlarının dövriyyəsini təhlil etsək Mərkəzi Bankın rezerv olunmuş pul ehtiyatının 2019-cu ildə daha çox olduğu qənaətinə gəlirik:

**Qrafik 2: Pul multiplikatoru(dövrün sonuna)**




**Mənbə:**Azərbaycan Respublikasının Mərkəzi Bankı:Pul-kredit statistikası
https://www.cbar.az/page-42/monetary-indicators

Model nəticələrinin təhlili zamanı aydın olur ki, ayrı-ayrı istiqamətlərdə həyata keçirilən dövlət siyasəti heç də bütün sektorlar üzrə oxşar təsirlərə malik olmur. Məsələn; ötən 10 il ərzində həyata keçirilən monetar siyasət ölkə iqtisadiyyatının bir sıra sektorları üzrə pozitiv təsirə malik olsa da, nəqliyyat sektorunda ümumi daxili məhsulun həcminə mənfi təsir edib. Buna səbəb isə 2014 və ondan əvvəlki illərdə Mərkəzi Bankın milli valyutanın möhkəmlənməsinə hədəflənən məzənnə-pul siyasəti olub. Belə ki, möhkəm manat siyasəti nəqliyyat sektorunun, xüsusi ilə də tranzit daşımaların rəqabətliliyini zəiflədir və nəticədə bu sahədə yaradılan əlavə dəyərin həcminə mənfi təsir göstərirdi.

Müasir beynəlxalq təcrübənin təhlili göstərir ki, iqtisadiyyatın şaxələndirilməsində mühüm parametrlərdən biri prosesin maliyyə təminatının gücləndirilməsidir. Çünki iqtisadi aktivliyin artırılması, təşəbbüslərin dəstəklənməsi, vençur kapitalisti rolunun icra edilməsi və prioritetlərin yaradılaraq idarəedilməsində maliyyə əlçatanlığı önəmlidir. Təbii resurslarla zəngin olan ölkələr adətən resurs gəlirlərinin yüksək həcmdə olduğu dövrlərdə vəsaitlərin müəyyən bir qismini digər iqtisadi sahələrin diversifikasiyasına, ənənəvi sahələrlə paralel olaraq yeni istiqamətlərin yaradılıb dəstəklənməsinə sərf edirlər. Ümumilikdə isə iqtisadiyyatın şaxələndirilməsi

tədbirlərinin həyata keçirilməsi mərhələsində bütün növ maliyyə mənbələrindən vəsaitlərin cəlbi uğurlu nəticələr əldə olunmasına səbəb olur. Buraya dövlət və özəl; daxili və xarici;maliyyə mənbələrindən cəlb edilən vəsaitlər daxildir.İqtisadiyyatın şaxələndirilməsi məqsədi ilə cəlb edilən maliyyə qaynaqları aşağıdakı konkret istiqamətlər şəklində qruplaşdırılır:

- 1) dövlət maliyyəsi;
- dövlət büdcəsi,
- büdcədənkənar fondlar,
- yerli büdcələr,
- 2) xarici investisiyalar;
- resurs iqtisadiyyatına hədəflənməyən birbaşa xarici investisiyalar,
- yerli investisiyalar;
- bank sisteminin kreditləri;
- qrantlar;
- beynəlxalq təşkilatların, xarici ölkələrin kreditləri və texniki-maliyyə dəstəyi

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə ölkə iqtisadiyyatının inkişafı məqsədi ilə nəzərdə tutulan fəaliyyətlərin maliyyə mənbəyi kimi dövlət büdcəsi, büdcədənkənar fondlar, Sahibkarlığa Kömək Milli Fondu, yerli büdcələr, mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri, birbaşa xarici investisiyalar, ölkənin bank sisteminin kreditləri və qrantlar, beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı və s. qanunvericiliyə zidd olmayan istiqamətlər qeyd edilib (O.N.Aras, 2017).

Müxtəlif istiqamətlərdə – iqtisadiyyatın liberallaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi və hüquq məhkəmə sisteminin reputasiyasının daha da yüksəldilməsi tədbirləri, güzəşt mexanizmlərinin işlənib-hazırlanması, prioritet sahələrin müəyyən edilməsi, mühüm sahələrin inkişafı məqsədi ilə müəssisələr üçün

dövlət zəmanətinin təmin edilməsi, ixrac prosedurlarının sadələşdirilməsi və s. addımların atılması ilə paralel olaraq dövlət hər zaman iqtisadiyyatın mühüm maliyyə mənbələrindən biri hesab edilir. Diversifikasiya zamanı müxtəlif metodlarla genişləndirilmiş fiskal siyasət həyata keçirilməklə iqtisadi əhval-ruhiyyəni təşviq edirlər. Azərbaycanda ictimai vəsaitlər iqtisadi diver-sifikasiya məqsədi ilə mexanizmlərin köməyi ilə yönəldilir: dövlət büdcəsi; malların (işlərin və xidmətlərin) satın alınması, dövlət büdcəsinin ayrı-ayrı funksional xərc istiqamətləri üzrə subsidiyaların ayrılması, dövlət büdcəsindən məqsədli fondlara vəsaitin ayrılması, əsas vəsait qoyuluşları, qrantlar və s.) Sahibkarlığa Kömək Milli Fondu(biznes layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi)

Lakin ilk növbədə qeyd etmək lazımdır ki, 2014-cü ildən sonra neft gəlirlərində müşahidə edilən kəskin azalma dövlət büdcəsinin gəlirlər və xərclər hissəsinə də təsirsiz ötüşməyib. Yaranmış vəziyyətdə maliyyə dayanıqlığını təmin etmək məqsədi ilə xərcləmələrə sekvestr tətbiq etməklə yanaşı, ictimai vəsaitlərin xərclənmə prosesində şəffaflığın artırılması, səmərəliliyinin təmin edilməsi kimi istiqamətlərdə nəzarəti gücləndirilib. Başqa sözlə, dövlət xərcləmələrində azalma iqtisadi aktivliyi müəyyən mənada azaltmaqdadır. Lakin ötən dövr ərzində ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafı məqsədi ilə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi addımları atılmaqdadır. Azərbaycan Respublikası Prezidentinin 01.03.2016-cı il tarixli "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Azərbaycan ərazisində qeyri-neft sahəsinə aid məhsulların ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslərə ixrac təşviqi (subsidiya) ödənişi üçün hüquqi bazanın formalaşdırılmasına start verildi (http://www.e-qanun.az/framework/32254).

Eyni zamanda Fərmanda bu məqsədlə xərclənəcək vəsaitin dövlət büdcəsindən maliyyələşdirilməsi nəzərdə tutulub. İxrac təşviqinin həcminin baza hissəsi gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizi olaraq müəyyən edilib. Onu da qeyd edək ki, qeyri-neft məhsullarının ixracının sub-sidiyalaşdırılması 2020-

ci ilin 31 dekabr tarixinədək davam etdiriləcək. Məqsəd qeyri-neft ixracının təşviq edilməsi və ənənəvi ixrac istiqamətləri ilə yanaşı, yeni və dünya bazarlarında qiymət və keyfiyyət baxımından rəqabət apara biləcək mal və xidmətlərin çeşidinin artırılmasıdır. Belə ki, bir sıra hallarda kiçik istehsal gücü olan müəssisələrdə məhsulun maya dəyəri miqyas prinsipi nəzərə alındıqda daha yüksək olur ki, bu da kiçik və orta sahibkarların ixrac imkanlarını məhdudlaşdırır. İxracın təşviqi məqsədi ilə subsidiya mexanizminin təkmilləşdirilməsi istiqamətində atılan addımlardan biri isə "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilib . Sərəncamın məqsədi rəqabətqabilliyyətli qeyri-neft məhsullarının istehsalı və ənənəvi xarici bazarlarla yanaşı, yeni bazarlara çıxış imkanlarının artırılması, qeyd edilən istiqamətdə nailiyyətin əldə edilməsi üçün əlverişli mühitin təmin edilməsidir. Sərəncam aiddiyyəti dövlət qurumları qarşısında kənd təsərrüfatı və emalı məhsullarının ixracı zamanı "geri ödəmə" (subsidiya) mexanizm-lərinin hazırlanmasını, xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsini, qlobal bazarların öyrənilməsi və marketinq fəaliyyətlərinin inkişaf etdirilməsini mühüm vəzifə olaraq müəyyən edir. Eyni zamanda bu sərəncamla dövlət "Made in Azerbaijan" brendinin dünya bazarlarında təbliği, yerli şirkətlər tərəfindən mal və xidmətlərin ixrac üçün prosedurların (sertifikat və patentlərin alınması) icrası, xarici bazarların öyrənilməsi məqsədi ilə tədqiqatların apa-rılması xərclərini öz üzərinə götürmüş oldu.

Qeyd edilənlərlə yanaşı, bu sərəncamla ixrac məqsədli istehsal müəssisələrinə verilən kreditlərə əlavə güzəştlərin tətbiqi üçün "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"nın dəyişdirilməsi nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, məlum sərəncam Azərbaycan mənşəli məhsulların ixracının mümkün olduğu ölkələrində logistika mərkəzlərinin yaradılması, eyni zamanda ixrac məlumat bazasının (elektron portal) formalaşdırılmasını öhdəlik olaraq müəyyən edir (https://president.az/articles/36226)

**Qrafik 3: Əvvəlki ilin müvafiq dövrünə nisbətən neft və qeyri-neft sektorunun real artım tempi**




**Mənbə:**Nazirlər Kabineti:İcmal hesabat
https://nk.gov.az/media/files/b7d91bdbad8f2ea926c72f8adda753ee.pdf

ÜDM-in qeyri-neft sektoru 2020-ci ilin yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrünə nisbətən real ifadədə cəmi 2.4% azalmışdır (2019-ci ilin yanvar-sentyabr aylarında 3.5% artmışdır). Həmin dövr ərzində qeyri-neft sənayesi 10.5%, informasiya və rabitə sahəsi 2.7%, kənd təsərrüfatı 1.5%, nəqliyyat və anbar təsərrüfatı 5.5% artmışdır. (https://www.stat.gov.az/source/system_nat_accounts/ )

Bundan başqa, post-neft dövrünün prioritet inkişaf istiqamətlərindən biri kimi kənd təsərrüfatı sahəsində dayanıqlığın artırılması və istehsalın təşviqi, sektorda intensiv inkişafın dəstəklənməsi məqsədi ilə bu sahədə tətbiq edilən subsidiyalaşma mexanizminin təkmilləşdirilməsinə başlanılıb. Belə ki, xüsusi ilə də əkinçilikdə sahəyə uyğun subsidiyalaşmadan məhsula görə subsidiyalaşmaya keçilməsi istiqamətində addımlar atılmaqdadır. Qeyd edilən istiqamətdə dəyişiklərin daha doğun təsviri üçün aşağıdakı nümunələr diqqət yetirilməsi tövsiyyə edilir.

“Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 sentyabr 2016-cı il tarixli Sərəncamı məhz qeyd etdiyimiz istiqamətdə yeni subsektorların stimullaşdırılması məqsədi daşımaqla yanaşı, digər tərəfdən də istehsal edilən məhsulun həcminə görə maliyyə yardımı verilməsi təcrübəsini genişləndimişdir.Bu tarixdən etibarən fermerlər tərəfindən istehsal edilən xam pambıq məhsulunun emal müəssisələrinə satılmış hər kiloqram görə 0.1 manat məbləğində subsidiyanın verilməsinə başlanılıb. (http://www.e-qanun.az/framework/36050)

Qeyd edək ki, post-neft dövründə ölkənin tədiyyə balansının tarazlığının təmin edilməsi məqsədi ilə ixrac potensialının gücləndirilməsində aqrar sahə mühüm sektorlardan hesab edilir. Ölkədə istehsal edilən ipək və fındıq isə rəqabətqabiliyyətli məhssullar sırasına daxildir ki, bu da qeyd edilən istiqa-mət-də səylərin artırılması və ixracın gücləndirilməsini tələb edir. Məhz bu məqsədlə 16 noyabr 2016-cı il tarixində “İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidenti tərəfindən Sərəncamı imzalanıb.( https://president.az/articles/26017/print)

Sərəncamda barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin tədarük edilməsinin dövlət tərəfindən maliyyələşdirilməsi və ölkənin ayrı-ayrı regionlarında bu sahədə fəaliyyət göstərən sahibkarlıq sübyektlərinə tələbata uyğun olaraq ödənişsiz formada paylanmasına göstəriş verildi. Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə isə ölkədə ənənəvi sahələrdən biri hesab edilən tütünçülün təşviq edilməsi nəzərdə tutulub. Beləliklə, tütünçülük sahəsində fəaliyyət göstərən sahibkalara emal müəssisələrinə satdıqları quru tütünün bir kiloqramına, yaş tütünün isə hər on kiloqramına 0,05 manat məbləğində subsidiya verilməyə başlanılıb (http://www.e-qanun.az/framework/36324).

.Beləliklə, Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2015-ci il ta-rixli “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında”

Sərəncamı ilə ölkə əhalisinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi, məhsuldarlıq səviyyəsi yüksək genetik növlərin artırılmasının dəstəklənməsi və ümumilikdə bu prosesinin təşviqi məqsədi ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova sayına 100 (yüz) manat həcmində subsidiyanın verilməsi təsdiq edilib. Eyni zamanda bu sərəncamla ölkəyə iribuynuzlu damazlıq heyvanların gətirilməsi prosesinin sürətləndirilməsi və maliyyə çətinliklərinin azaldılması məqsədi ilə sahibkarlara 50 faiz güzəştlili lizinq yolu ilə satışının təşkilinə 15,0 (on beş) milyon manat vəsait ayrılıb .

Göründüyü kimi, 2015-2016-cı illər ərzində ölkədə kənd təsərrüfatı sahəsində subsidiyaların verilməsi haqqında qaydalar məhsula görə prinsipinə əsaslanır ki, bu da gələcək illərdə məhsuldarlığın artmasına, intensiv təsərrüfatçılıq təşəbbüslərinin genişlənməsinə və ən əsası aqrar sektorda mənfəət normasının yüksəlməsi ilə bu istiqamətə marağın yüksəlməsinə səbəb olacaq. Post-neft dövründə qeyri-neft sektorunun inkişafının dövlətin resursları hesabına dəstəklənməsinin digər istiqaməti isə prioritet və innovativ istiqa-mətlərə aşağıfaizli kreditlərin verilməsi, bu sahədə maliyyə vəsaitlərinə çıxış imkanlarının artırılmasıdır. Maliyyə əlçatanlığının artırılması prosesində dövlətin iştirakçılığı SKMF tərəfindən təmin edilir. Qurumun əsasnaməsi 1992-ci ildə təsdiq edilib. Azərbaycan Respublikası Nazirlər Kabineti isə 1997-ci ilin sentyabrında «Dövlət büdcəsinin «Kiçik sahibkarlığa investisiya yardımı» maddəsində nəzərdə tutulan vəsaitin bölüşdürülməsi və istifadəsi haqqında Əsasnamə» ilə güzəştli kreditlərin aidiyyəti qurumun təklifi əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən ayrılan vəsait hesabına verilməsi qaydalarını təsdiq edib. Beləliklə, SKMF hazırda dövlət vəsaiti hesabına iqtisadiyyatın dəstəklənməsi istiqamətində dövlət siyasətini həyata keçirir (https://president.az/articles/11089).

SKMF-nin real sektorun dəstəklənməsi baxımından əhəmiyyətli vəzi-fəsi nəzərə alınarsa, onun fəaliyyətinin təkmilləşdirilməsi vacib məqamlardan biridir. Əvvəlki illərdə bank sektorunun daimi genişlənməsi büdcə xərcləmələrində sürətli artımlar

real sektora vəsait axınını nisbətən asanlaşdırdığı üçün fondun fəaliyyəti diqqəti cəlb etmirdi. Lakin 2014-cü ildən sonra məlum səbəblərdən real sektorun maliyyə təminatı sürətlə zəiflədi, bank sektoru dərin böhrana daxil olduğu üçün kreditləşdirməni dayandırdı ki, bu da SKMF-nin əhəmiyyətini daha da artırmış oldu. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən açıqlanan statistikaya görə 2016-cı ilin yanvar ayının əvvəlində ölkə üzrə kredit qoyuluşlarının həcmi 21,16 milyard manat olduğu halda, 2017-ci ilin mart ayının əvvəlinə 15,42 milyard manata düşüb. Başqa sözlə, 14 ay ərzində ölkə iqtisadiyyatına kredit qoyuluşları 27,1% azalıb. Kredit qoyuluşlarında azalmanın əsas səbəbi iqtisadi aktivliyin zəifləməsi, problemli kreditlərin həcminin sürətlə artması fonunda bankların kreditləşmədə maraqlı olmaması, xarici valyuta ilə təklif edilən kreditlərə isə milli valyutanın gələcək məzənnəsinin proqnozlaşdırılmasında olan çətinliklər və sair amillərdir. Məhz bu kimi faktorlar səbəbindən SKMF daha effektiv və hədəfli maliyyələşdirmə siyasəti həyata keçirə bilən, sahibkarlar azrasında daha etibarlı tərəfdaş reputasiyası olan, iqtisadi prioritet olaraq müəyyən etdiyi sahələrdə aktiv fəaliyyət göstərən sahələrdən biri olmalıdır. SKMF-in maliyyə imkanları ölkə iqtisadiyyatının tələbatını ödəmək gücündə olmasa da, 2016-cı ilin sonuna olan məlumata görə 2003-2016-cı illər əhatə edən maliyyələşmə dövründə SKMF ölkə iqtisadiyyatına ümumilikdə 1,75 milyon manat həcmində güzəştli kredit verib. Müvafiq dövrün sonuna Fondun kredit portfeli isə 0,97 milyard manat olub ancaq bu qurumun daha effektiv maliyyələşdirmə həyata keçirməsi hazırkı şərtlər daxilində qeyri-neft sektorunun dəstəklənməsi, xüsusi ilə də regionlarda hansı ki, bank sektoru daha zəif təmsil olunur sahibkar təşəbbüskarlığını artırmqda ciddi rol oynaya bilər(http://www.e-qanun.az/framework/34502 ).

İqtisadiyyatın digər maliyyə qaynağı isə dövlət büdcəsinin investisiya xərcləri hesab edilir. Belə ki, dövlətin əsaslı vəsait qoyuluşlarına xərcləmələri daxili alıcılığı artırmaqla iqtisadi artımı dəstəkləyir. Xüsusi ilə də Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin istismara verilməsi və paralel olaraq neft qiymətlərində müşahidə edilən sürətli artım dövlət gəlirlərini artırmış ki, bu da son nəticədə dövlət xərcləmələrinin, əsas vəsait qoyuluşları üzrə ayrılan vəsaitlərin həcminin qısa zaman

ərzində kəskin artmasını şərtləndirmişdi. Hazırda isə əks proses baş verməkdədir və ölkə iqtisadiyyatı son iki ildə – 2015-2016-cı illər ərzində ölkə iqtisadiyyatı qeyd edilən vəsaitlərdən məhrum olub. Yuxarıda sadaladıqlarımızla yanaşı, dövlət büdcəsindən iqtisadiyyatın ayrı-ayrı sektorlarında fəaliyyət göstərən fondlara vəsait ayrılır ki, bu da son nəticədə iqtisadiyyat maliyyələşməsinin digər mexanizmlərindən biri hesab edilir. Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və s. aid etmək olar. Bu fondlar vasitəsi ilə ən müxtəlif sahələrdə fəaliyyətlər dəstəklənir ki, bu son nəticədə iqtisadi aktivliyi, startap fəaliyyətlərini, innovativ ideyaları təşviq etməklə ölkədaxili dinamikanı gücləndirir.

## 3.2. İqtisadi mühitin liberallaşdırılması və institusional islahatlar yolu ilə ölkənin investisiya cəlbediciliyinin artırılması

Müasir beynəlxalq praktikanın təhlili və müxtəlif empirik yanaşmaların təhlili zamanı məlum olur ki, müxtəlif dövrlərdə resurs ölkələrində gəlirlərin yüksək olması, asan yolla əldə edilməsi kimi faktorlar iqtisadi mühitin inkişafı, liberal iqtisadi dəyərlərin tətbiqi kimi mühüm məsələlərdə iqtisadi siyasətin nisbətən passiv olmasına səbəb olur. Çünki dövlət gəlirlərinin resurs hesabına təmin edilməsi digər istiqamətlərin inkişafına, rəqabətli bazarın formalaşdırılmasına tələbi zəiflədir. Əksinə bu kimi ölkələrdə əksər hallarda mühafizəkar iqtisadi idarəetmə üstünlük təşkil edir. Belə ki, aparılan müşahidələrin nəti-cəsində məlum olur ki, resurs ölkələrində qərarvericilərlə biznes subyektləri əksər hallarda eyni insanlar olur. Bu halda adminstrativ səlahiyyətlərdən istifadə edərək iqtisadi proseslərə müdaxilə geniş yayılır. Nəticədə iqtisadiyyat daha çox illeqal qaydalarla idarə edilir, inhisarçılıq iqtisadyyatın bütün sahələrinə sirayət edir. Nəticədə dövlətin daxili və xarici reputasiyasına ciddi zərər

dəyir. Ölkə iqtisadiyyatının neqativ göstəriciləri beynəlxalq hesabatlarda əks olunur. Real sektor daxili və xarici investisiya cəlb ediciliyini itirir, birbaşa xarici investisiyaların həcmi məhdud səviyyədə olur ki, bu da öz növbəsində innovasiya axınını zəiflətməklə üfüqi diversifikasiya prosesi üçün əsas maneələrdən birinə çevrilir. Eyni zamanda himayədarlıq biznesinin təşəkkül tapması sonda gizli iqtisadiyyatın həcmini artırmaqla normal olmayan iqtisadi mühitdə daha ciddi qeyri-bərabərliyə, rəqabət imkanlarının məhdudlaşmasına və hüquqi idarəetmənin sarsılmasına yol açır. Beləliklə, mülk toxunulmazlığı, sahiblik hüququ real davranışlarda əhəmiyyətini itirməklə investor marağını azaldır, investisiyanın xaricə axınına, təşəbbüskarlığın zəifləməsi ilə idarəetməyə inamın itməsinə səbəb olur. İqtisadiyyatın şaxələndirilməsi prosesi isə yuxarıda sadaladığımız faktorların müşahidə etdiyi mühitlə mümkün olmayan məqsədlərdən hesab edilir. Məhz bu səbəbdəndir ki, diversifikasiya prosesinin əsas maliyyə qaynağı hesab edilən investisiya sahiblərinin inandırmaq bu kimi ölkələrdə həll edilməli olan problemlər arasında birinci yerdə dayanır. Beləliklə, qeyd etməliyik ki, iqtisadi aktivliyin artırılması və diversifikasiya proseslərinin dəstəklənməsi, prosesin maliyyə təminatının gücləndirilməsi ilk növbədə liberallaşma istiqamətində addımların atılması ilə mümkündür. Bu isə öz növbəsində ciddi instiusional və struktur dəyişikliklərin hazırlanıb, inhisarçılıqla mübarizənin sərtləşdirilməsi və hüquqi bərabərliyin təmin olunmasını tələb edən geniş spektrli islahatları tələb edir. Qeyd edilən istiqamətlərdə qısamüddətli nəticələrin əldə edilməsi çətin olsa da, orta və uzunmüddətli dövrdə ölkənin qlobal reputasiyasının yaxşılaşmasını, yerli və xarici maliyyə qurumlarının, həmçinin yerli və xarici investorların marağının artırılmasına səbəb olur. ( Ahmadov A., 2012) Beləliklə də, iqtisadiyyatın üfüqi və şaquli diversifikasiyasının maliyyələşdirilməsində özəl sektorun iştirakçılığı artır, dövlətin maliyyə yükü azalır və paralel olaraq onun iqtisadiyyatda rolu daha çox tənzimləyici xarakter alır.Azərbaycan 1991-ci ilin oktyabrında müstəqilliyin əldə edilməsi ilə iqtisadi inkişaf strategiyasının bazar prinsipləri əsasında azad, rəqabətli, hüquqi təminatı təmin edilmiş və liberal dəyərlərə söykənən prinsiplər əsasında davam

etdiriləcəyini elan etdi. Məhz bu andan etibarən yerli sahibkarlıq təşəbbüsləri güclənməyə başladı, xarici investorların ölkənin ayrı-ayrı sektorlarına axını başladı. Həmin dövr üçün Azərbaycan iqtisadiyyatı həm daxili və həm də xarici investorlar üçün kifayət qədər cəlbedici idi. İqtisadiyyatın dövlət sektorunun defolt olması, istehsal və xidmət sektorunda tam boşluğun yaranmasına səbəb olmuşdu ki, bu da rəqabətsizlik mühitində biznes fəaliyyəti üçün mün-bit şərait demək idi. Digər tərəfdən isə özəlləşdirmə prosesinə başlanılmışdı ki, bu da öz növbəsində əlverişli şərtlərlə dövlət əmlakının özəlləşdirilməsinə şərait yaradırdı.Həmin dövr üçün Azərbaycan iqtisadiyyatı həm daxili və həm də xarici investorlar üçün kifayət qədər cəlbedici idi. İqtisadiyyatın dövlət sektorunun defolt olması, istehsal və xidmət sektorunda tam boşluğun yaranmasına səbəb olmuşdu ki, bu da rəqabətsizlik mühitində biznes fəaliyyəti üçün münbit şərait demək idi. Digər tərəfdən isə özəlləşdirmə prosesinə başlanılmışdı ki, bu da öz növbəsində əlverişli şərtlərlə dövlət əmlakının özəlləşdirilməsinə şərait yaradırdı. Post-neft dövrü isə yuxarıda sadalanan nöqsanlı iqtisadi mühit şəraitində inkişaf edə bilməz. Çünki iqtisadi inkişaf investorların davranışları ilə birbaşa əlaqəlidir ki, bunun üçün də azad, rəqabətli bazar prinsiplərinin təmin edilməsi vacib şərtlərdəndir. Bunun nəticəsi idi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bir daha ölkənin iqtisadi sahədə siyasi kursunu təkrar etdi. Belə ki, cənab İlham Əliyev həmin toplantıda “Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik. Görün, nə qədər böyük uğurlar əldə etmişik” fikrini səsləndirərək bütün steykholderlərə liberal dəyərlərin qorunacağı isitqamətində siyasi iradəni bir daha nümayiş etdirdi. Eyni zamanda Azərbaycan Respubikasının Prezidenti həmin çıxışında “Biz çalışmalıyıq ki, iqtisadi islahatları daha da dərinləşdirək və iqtisadiyyatı liberallaşdırmaq üçün əlavə tədbirlər görək” deməklə bu sahədə əlavə tədbirlərin görülməsinə, iqtisadiyyatı staqnasiya vəziyyətinə salan neqativ halların aradan qaldırılmasına ehtiyac olduğunu və bu istiqamətdə əlavə tədbirlərin görüləcəyi xəbərini də vermiş oldu. Azərbaycan iqtisadiyyatının

liberallaşdırılması istiqamətində son illər müəyyən addımlar atılmaqdadır. Aşağıda qeyd edilən fəaliyyətləri isə xüsusi ilə vurğulamağa ehtiyac var.

1. Biznes fəaliyyətinə inzibati müdaxiləsinin neytrallaşdırılması məqsədi ilə görülən işlər: Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında Azərbaycan Respublikasının Qanunu" 20 oktyabr 2015-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanıb (https://president.az/articles/36226).

Bu Qanun insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaratmayan, korrupsiya predmeti hesab edilməyən hallar üçün bütün növ yoxlamaların 2 il müddətində dayandırılmasına səbəb oldu. Məqsəd post-neft dövründə qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətinin təşviq edilməsi və biznes sferasındakı inzibati müdaxilələri stereotipinin zəiflədilməsi idi.Hesab edirik ki, yuxarıda göstərilən fərmanın vaxtı əlavə iki il müddət üçün artırılmalı, bu müddət ərzində sahibkarlıq sahəsində fəaliyyət göstərən aidiy-yəti dövlət qurumlarının ictimai imicinin artırılması, qurum əməkdaşları arasında etik davranış bacarıqlarının yüksəldilməsi, ənənəvi davranışların unutdurulması üsullarının tətbiqi, kadr potensialının yenilənməsi və paralel olaraq sahibkarlıq subyektləri arasında leqal biznes fəaliyyətinin üstünlüklərinin təbliği isitqamətində intensiv formada işlər aparmalı və qanun ləğv edilməsi sahibkarlar üzərində əlavə təzyiqin formalaşmasına səbəb olmamalıdırSahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadə-ləşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Azərbaycan Res-pub-likası Prezidentinin 19 oktyabr 2015-ci il tarixli Fərmanı sahibkarlıq fəaliyyətinə müdaxilələrin, lisenziya tələb edilən sahələrdə məmur himayədarlığı ilə rəqabət şərtlərinin pozulmasının aradan qaldırılması məqsədi daşıyır. Fərmanda qeyd edilir ki, sahibkarlıq fəaliyyətinin lisenziya (xüsusi razılıq) tələb olunan növlərinin sayının çox olması, bu sahədə tətbiq edilən prosedurların mürəkkəbliyi sahibkarlığın inkişafına maneələrin yaradılmasına və korrupsiya hallarına yol açıb. Bu Fərmanla lisenziya tələb olunan bütün növ iqtisadi fəaliyyətlər üzrə (dövlət təhlükəsizliyindən

irəli gələn hallar istisna olmaqla) icazələrin verilməsinə nəzarət, bu fəaliyyət novlərinin yeniddən siyahılaşdırılması, mini-mum səviyyəyə azaldılması vəzifələri Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırılıb. Eyni zamanda lisenziyaların verilməsi xidmətinin isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN xidmət) mərkəzləri tərəfindən həyata keçirilməsi müəyyən edilib .Beləliklə də ayrı-ayrı dövlət qurumları tərəfindən verilən “xüsusi icazələr” (lisenziya) zamanı subyektiv yanaşmalar, korrupsiya və himayədarlıq, eyni zamanda inhisarçılığa şərait yaradan hallar aradan qaldırılmış oldu. Bu addımla biznesin qeyri-rəsmi tranzaksiya xərcləri azaltmış oldu . 2016-cı ilin mart ayının 15-i tarixində isə Azərbaycan Respublikası Prezidenti xüsusi icazələrin verilməsi sahəsəində qanunvericilikdə olan boşluqların aradan qaldırılması, lisenziyalı fəaliyyət sahələrinin istiqamətlərinin yenidən müəyyənləşdirilməsi və hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə “Lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikasının Qanunu”nu təsdiq etdi. Bu qanunla Azərbaycan 78 fəaliyyət növü üzrə 80 istiqamətdə xüsusi icazələrin alınması nəzərədə tutulur ki, bu da əvvəlki vəziyyətlə müqayisədə 2 dəfə azdır (http://www.e-qanun.az/framework/32626).

Hazırda xüsusi icazələr üzrə xidmətlər ASAN xidmət mərkəzlərində həyata keçirilir. Qeyd edək ki, ASAN xidmət mərkəzlərinin digər dövlət qurumlarından fərqli olaraq cəmiyyətdə müsbət reputasiyaya malik olması biznesin inamını artırır və investisiya mühitinə müsbət təsir edir. Ümumilikdə isə gələcəkdə xüsusi icazə tələb edən fəaliyyət sahələrinin sayının daha da azaldılması, lisenziya prosedurlarının sadələşdrilməsi, xüsusi icazə rüsumlarının optimallaşdırılması və ən əsası isə maliyyə sektorunda hüquqi və fiziki şəxslərin sahibkarlıq fəaliyəti üçün lisenziyaların verilməsi prosesinin ASAN xidmət tərəfindən icrasının təşkil edilmsi bu sahədə uğurları daha da artıra bilər. İnvestisiya cəlbediciliyinin artırılması və bu sahədə təşviqin gücləndirilməsində Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-cı il tarixli Fərmanı ilə “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihələrinin həcmi ilə bağlı minimal məbləğ və investisiya layihələrinin

həyata keçiriləcəyi inzibati ərazi vahidləri" haqqında qanunu əhəmiyyətli rola malikdir. Bu qanunla ölkə ərazisi 5 investisiya zonasına bölünür. Hər bir investisiya zonası üçün prioritet istiqamətlər üzrə minimum investisiya həcmi və ondan artıq sərmayə qoyuluşları üçün güzəştlər müəyyən edildi. Bu qanunla müəyyənləşdirilmiş tələblərə cavab verən investisiya layihələrə vergi güzəştləri, gömrük rüsumu güzəştləri kimi təşviqedici şərtlər müəyyənləşdirildi. Məqsəd daxili və yaxud xarici mənşəli olmasından asılı olmayaraq sərmayədarların Azərbaycan ərazisində fəaliyyətinin dəstəkləməklə qeyri-neft sektorunun inkişafına, yeni sahələrin yaradılmasına və ümumilikdə istehsal və xidmət sektorlarının şaxələndirilməsi prosesinə irihəcmli vəsaitlər cəlb etməkdir. - İnvestisiya mühitinin optimallaşdırılması və stimullaşdırıcı mexanizm-lərin təkmilləşdirilməsi məqsədi ilə 2016-cı ildən etibarən Azərbaycanda "İnvestorun təşviqi sənədi" verilməsinə başlanıldı. "İnestorun təşviqi sənədi" onu əldə edən sahibkar üçün əlavə güzəştlər müəyyən edir. Bu güzəştlərə vergidən azadolmalar və yaxud aşağı vergi dərəcələrinin tətbiqi, gömrük rüsum-larında yüngülləşdirici halların tətbiqi və s. kimi real şərtlər təklif edilir. İnvestorun təşviqi sənədinin verilməsi haqqında qərar Azərbaycan Respub-li-ka-sı Prezidentinin 18 yanvar 2016-cı il tarixli "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə təsdiq edilib. Həmin Fərmanla "İnvestisiya təşviqi sənədinin verilməsi" meyarları aşağıdakı kimi müəyyən edilib:

(http://www.e-qanun.az/framework/33308)

I) İnvestisiyanın maliyyələşdiyi iqtisadi fəaliyyət sahəsi;

II) İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

III) İnvestisiya layihəsinin maliyyələşdirələcəyi inzibati ərazi vahidi.

Beləliklə, yuxarıda qeyd edilən tələblərə uyğun investisiya layihələri dövlətin asanlaşdırıcı şərtlərindən yararlanaraq iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoyuluşlarını artırmağa sövq ediləcək. Milli iqtisadiyyatın rəqabətliliyi, diversifikasiya imkanları kiçik, orta və iri sahibkarlıq subyektlərinin təşviqi ilə daha

da sürətlənəcəkdir. "İnvestisiya təşviqi sənədinin" verilməsi prosesinin sadələşdirilməsi və qiymətləndirmə mərhələsində şəffaflığın artırılması, prosedurların yerinə yetirilməsi üçün tələb edilən gün sayının azaldılması bu fəaliyyət növləri üzrə aktivliyi artıra, sərmayə axınını sürətləndirə və rəqabəti dərinləşdirməklə inkişafı gücləndirə bilər.

Azərbaycan Respublikasının investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların qlobal arenada təbliği, beynəlxalq reytinqlərdə ölkənin reputasiyasının artırılması, bu sahədə mövcud problemlərin təsbit edilməsi və aradan qaldırılması, həmçinin bütün bunların xarici investorların nəzərinə çatdırılması məqsədi ilə 13 iyul 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır.(http://www.e-qanun.az/framework/39902).

Sərəncamda qeyd edilir ki, gələcək dövrlərdə iqtisadiyyatın neftdən asılılığının azaldılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə əsaslanan rəqabət-qabiliyyətli iqtisadiyyatın inkişaf etdirilməsi, biznes və investisiya mühitinin inkişaf etdirilməsinə hədəflənən fəaliyyətlərin davam etdirilməsi dövlətin əsas strateji hədəfi olaraq təsnifləşdirilir. Beynəlxalq təcrübənin öyrənilməsi zamanı qeyd etdiyimiz kimi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər arasında xüsusi iqtisadi zonaların yaradılması geniş yayılımış metodlardan hesab edilir. Belə ki, hökumətlər, xüsusi ilə də xarici investorlar üçün cəlbediciliyi artırmaq məqsədi ilə vergi, gömrük, digər tranzaksiya xərclərində güzəştlər təklif edərək xüsusi ərazilərdə əlahiddə şərtlər altında fəaliyyət imkanı yaradırlar. Xüsusi iqtisadi zonaların yaradılması ilk növbədə ölkəyə irihəcmli birbaşa xarici investisiya axınına şərait yaradır, əmək bazarını canlandırır, xarici təcrübənin idxalını sürətləndirir və paralel olaraq iqtisadi aktivliyi dəstəkləyir. Eyni zamanda ənənəvi olmayan istehsal və xidmət sahələrinin yaradılması və inkişafını dəstəkləyir. Bu sahədə mövcud

təcrübədən yararlanmaq məqsədi ilə Azərbaycanda azad ticarət zonasının yaradılması iqtisadi subyektlərin qeyd edilən üstünlüklərdən yararlanma imkanını daha da artırır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamı ilə ilk xüsusi iqtisadi zona yaradıldı. Qeyd edək ki, Azərbaycanın geostrateji mövqeyi – "İpək Yolu"nun üzərində yerləşməsi, Avropa və Asiya arasında tarixi körpü funksiyası ölkənin Azad Ticarət Zonası potensialını daha da gücləndirir. Belə ki, Azərbaycan Avropa və Asiyanın mühüm quru və hava nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir ki, bu da ölkənin tranzit imkanlarını alternativləri ilə müqayisədə daha da sərfəli edir. Bu faktor yeni yaradılan Ələt Azad Ticarət Zonasına xarici sərmayədarların marağını daha da artırır. Eyni zamanda ölkənin coğrafi mövqeyi düzgün tənzimləndiyi və idarəedildiyi halda qısa zaman ərzində regionun ən böyük logistik mərkəz funsiyasını inkişaf etdirə bilər. Hazırda azad ticarət zonasının yaradılması istiqamətində – qanunvericiliyin təkmilləşdirilməsi və uyğunlaşdırılması, infrasturkturun qurulması, beynəlxalq səviyyədə təbliğatın təşkil edilməsi və s. işlər davam etdirilir. Bakı Limanında biz gələcəkdə sosial-iqtisadi dəyər yaratmaq üçün liman və logistika mərkəzinin rəqabətlilik və davamlı inkişafını təmin edirik. Bakı Limanı cəlbedici biznes şərtlərini təklif edən, səmərəli və uzunmüddətli tərəfdaşlıqların inkişafına diqqət yetirən platforma yaradacaq. Biz ekoloji baxımdan təmiz qurğular, investisiya, proses və prosedurların rahat həyata keçirilməsi üçün mükəmməl şərait yaratmağa sadiqik.

Ələt Azad Ticarət Zonasının gələcək inkişaf strategiyası aşağıda qeyd edilən məqamlar nəzərə alınaraq müəyyənləşdirilib:

a) Rəqabətli qiymət siyasəti və xidmətlər təklif edərək malların saxlan-ması, paylaşdırılması yolu ilə limanın tranzit imkanlarının genişləndirilməsi;

b) Yük ilə işləmə bacarıqlarının artırılması;

c) Kommersiya, işləmə xidmətləri, avtomobillə daşıma və saxlama kimi əməliyyatların bütün mərhələlərini əhatə edəcək vahid pəncərə xidmətinin təşkil edilməsi.

Göründüyü kimi, hökumətə Ələt Azad Ticarət Zonasının rəqabətliliyi və regional əhəmiyyətliliyini artırmaq isitqamətində genişspektrli fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur. Çünki fərmanda da əks edildiyi kimi, xü-susi iqtisadi zonanın yaradılmasında məqsəd iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək, rəqabətliliyini artırmaq, Azərbaycanın logistik və nəqliyyat mərkəzi sahəsində mövqeyini gücləndirmək, o cümlədən ölkənin nəqliyyat infrastrukturunu şaxələndirməkdir (http://www.e-qanun.az/framework/32370).

Hazırda Azad Ticarət Zonasında fəaliyyət göstərən yerli və xarici sahibkarlıq subyektləri üçün ayrı-ayrı sahələrdə güzəştlərin edilməsi məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsi fəaliyyətləri davam etdirilir. Lakin bu sahədə müəyyən çətinliklər mövcuddur. Xüsusi ilə də xarici investorlar ayrı-ayrı məcəllə və qanunlarda güzəştlərin əks etdirilməsini uyğun hesab etmirlər. Çünki ayrılıqda qanunların gələcək dövrlərdə hansı formada dəyişiklərin edilməsi sual doğurmaqla haqlı olaraq sərmayədarları narahat edir. Daha yaxşı olar ki, bu narahatlıqların aradan qaldırılması məqsədi ilə Ələt Azad Ticarət Zonası fəaliyyətlərin tənzimlənməsi qaydalarını, eyni zamanda nəzərdə tutulan güzəştlərin (vergi, gömrük və s. sahələrdə) əks olunduğu 30 il müddətində dəyişdirilməsi məhdudlaşdırılmış xüsusi qanun qəbul edilisin. Məhz bu halda xarici investorları güzəştlərin davamlılığına inandırmaq və zəmanət vermək olar ki, bu da ölkənin qeyri-neft sektoruna iri həcmli investisiya axınına səbəb olmaqla Azərbaycanı regionun logistik mərkəzinə çevirə bilər. Qeyd etmək lazımdır ki, Ələt ATZ-nın fəaliyyətinin uğurlu təşkili post-neft dövründə nəqliyyat sektorunun inkişafına və bu sahədə xidmətlərin şaxələn-dirilməsinə ciddi töhfə verə bilər. Paralel olaraq bu imkanlar ölkənin digər iqtisadi sektorları üçün multiplikator rolu oynaya bilər.

Azərbaycanın geostrateji mövqeyi nəzərə alınaraq ölkə üzrə xüsusi iqtisadi zonaların yaradılması siyasəti davam etdirilməli və xüsusi ilə də qonşu ölkə-lərlə sərhəd bölgələrdə azad iqtisadi zonalar yaradılmalıdır. Bu halda re-gionların bu imkanlardan yararlanaraq inkişaf etməsini sürətləndirmək, iqtisadi fəaliyyət sahələri şaxələndirmək, bununla da qonşu ölkələrdən investor axınını artırmaq olar. Eyni zamanda azad iqtisadi zonalar ölkə iqtisadiyyatının digər istiqamətlərinin inkişafı üçün multiplikator funsiyasının yerinə yetirməklə, üfüqi diversifikasiyaya pozitiv təsir edə bilər.

İnvestisiya mühitinin daha da liberallaşdırılması, ölkənin beynəlxalq reputasiyasının yüksəldilməsi, adminstrativ tədbirlərə inamın artırılması yollarından ən əhəmiyyətlisi isə hesab edirik ki, ölkənin hüquq-məhkəmə sisteminin yenidən qurulmasıdır. (Isayev N.A, 2017). Belə ki, məhz bu yolla investisiyanın qorunması faktoru gücləndirilə və risklər azaldıla bilər unun üçün beynəlxalq tərkibli məhkəmə qurumunun yaradılması və iqtisadi məsələlərdə bu quruma əlahiddə səlahiyyətlərin verilməsi həm yeni yaradılmaqda olan azad ticarət zonasına və həm də ölkə iqtisadiyyatının digər qeyri-neft təyinatlı istiqamətlərinə xarici və daxili investisiya axınını sürətləndirə bilər. Yuxarıda sadalanan istiqamətlərdə fəaliyyətlərin dayanıqlığının təmin edil-məsi, prosesinin davamlı inkişafa hədəflənməsi və qanunvericiliyin icra səviyyəsinin yüksəldilməsi halında ölkənin biznes və investisiya mühitində müsbətə doğru ciddi nailiyyətlərin edilməsi, qlobal investisiya və təcrübə axının sürətləndirilməsi nəticədə iqtisadiyyatın diversifikasiya imkanlarında daha effektiv yaralanması üçün optimal mühit yaradıla bilər. (Александр М.В., 2016)

### 3.3. Effektiv diversifikasiya fəaliyyəti: dövlətin monetar və fiskal-vergi siyasəti

İqtisadiyyatın diversifikasiya prosesini optimallaşdırmaq üçün dövlət büdcə xərcləri və gəlirlərilə iqtisadiyyatı tənzimləyir-bu fiscal siyasət deməkdir.

Keyns iqtisadi məktəbi hesab edir ki, dövlət vergilərin dərəcəsini və büdcə xərclərini dəyişirsə, bu, son nəticə olaraq məcmu tələbə, iqtisadi aktivliyə öz təsirini göstərir.

Dövlətin fiskal siyasəti biznes və sərmayə mühitində dəyişikliklər hiss edildikdə iqtisadi dövrün sabitləşdirilməsi üçün istifadə edilir (Зимарева Т.Г, 2014).

Müasir dövrdə hökumətər fiskal siyasətin iki mühüm alətindən – vergi və dövlət xərcləri dəyişməklə aşağıdakı makroiqtisadi indiqatorlara təsir edə bilir:

•məcmu tələb və iqtisadi aktivliyin səviyyəsi;
•yığımı və investisiyalar;
•gəlir bölgüsü

İqtisadi resessiya və yaxud staqnasiya riskləri ortaya çıxdıqda əksər hallarda hökumətlər genişləndirici fiskal siyasətə üstünlük verir. Genişlədirici fiskal siyasət daha çox dövlət xərcləmələrinin gəlirləri üstələməsi, başqa sözlə, büdcə kəsirinin artımı ilə xarakterizə edilir Bu zaman hökumətlər borclanmada daxili ən müxtəlif yollardan vəsait cəlbini artırmaqla büdcə xərcləmələrini geniş-ləridirərək iqtisadi mühiti aktivləşdirməyə cəhd edirlər. Günümüzdə qeyd edilən metoddan əksər dünya ölkələri istifadə etməkdədir. Ən müasir təcrübələr kimi 2007-ci ildən etibarən Avropa Birliyi ölkələrində və ABŞ-da müşahidə edilən maliyyə böhranları zamanı hökumətlərin sərgilədiyi fiskal siyasəti göz önünə gətirmək lazımdır. Adından da göründüyü kimi, genişləndirici fiskal siyasətin zəruriliyi daha çox böhranlı dövrlərdə ortaya çıxır. Xüsusi ilə də inkişaf etmək mərhələsində olan, qlobal reputasiyası və kredit reytinqi aşağı olan, ilkin kapital yığımı dayanıqlı maliyyələdiməyə kifayət etməyən ölkələrdə hökumətlərin fiskal siyasəti və iqtisadi inkişaf arasında bağlılıq maksimum səviyyədə olur ki, bu da şaxələndirmə prosesində dövlət resurlarında geniş istifadəni zəruri edir. Hökumətlər bu mərhələdə aşağıdakı əsas istiqamətdə fəaliyyətləri intensivləşdirir:

1) Dövlətin valyuta ehtiyatlarının müəyyən bir hissəsi müxtəlif mexanizmlərlə iqtisadiyyata axıdılır. Bu zaman maliyyələşdirmə aşağıdakı variantlarda: (Bowen H.P, 2017)

I) rezervlərin dövlət büdcəsinə transferti və büdcə xərclərinin artırılması;

II) rezerv fondlarında prioritet layihələrin birbaşa olaraq maliyyələşdirilməsi;

III) məqsədli kreditlərin maliyyələşdirilməsi məqsədi ilə bank-kredit təş-kilatlarının yenidən maliyyələşdirilməsi həyata keçirilir. Göründüyü kimi məqsəd mövcud resursların köməyindən yararlanmaqdır.

2) Özəlləşdirmə proqramlarının genişlədilməsi yolu ilə büdcə gəlirləri artırılır, həmçinin iqtisadiyyata investisiya axını intensivləşdirilir:

I) dövlətə məxsus fəaliyyəti dayandırılmış müəssisələrin özəlləşdirilməsi;

II) səmərəsiz, rəqabət qabiliyyəti zəif dövlət və zərərlə fəaliyyət göstərən müəssisələrin özəlləşdirilməsi;

3) dövlətləşdirmə yolu ilə struktur əhəmiyyətli müəssisələrin sağlamlaş-dırılması səyləri artırılır. Bəzi hallarda isə dövlət özəl sektora məxsus kor-po-rativ qiymətli kağızlara investisiya edir. Adətən bu təcrübədən maliyyə sek-torunda fəaliyyət göstərən subyektlərin – bankların, iri sığorta şirkətlərinin sağlamlaşdırılmasına üstünlük verilir. Bu zaman məqsəd orta və uzun müddətli dövrdə yenidən bu müəssisənin özəl sektora ötürülməsidir; (Александр М.В., 2016)

4)Passiv pul yığımlarının iqtisadiyyata cəlb edilməsi alətlərindən istifadə edilməklə vəsaitlərin dövlət büdcəsinin və büdcə xərcləmələri yolu ilə iqtisadiyyata injeksiya edilməsi təcrübəsi geniş yayılıb. Proses dövlət istiqrazlarının emissiyası yolu ilə təşkil edilir.

5) Dövlət xərclərinin arıtılması yollarından biri isə xarici boclanma sə-viyyəsinin yüksəldilməsidir. Belə ki, hökumətlər gəlirlərdə tələb olunan artım səviyyəsinə nail olmadıqda büdcə xərclərinin xarici borclanma hesabına artırmaqla iqtisadiyyata vəsait axınını sürətləndirilər.

Əksər hallarda hökumətlər yuxarıda qeyd edilən alətlərdən paralel olaraq istifadə edirlər. Bu isə son nəticədə məcmu tələbi artırır, milli valyutaların mə-zənnə mövqeyinin zəiflədir və beləliklə də, iqtisadi əhval-ruhiyyənin aktivlik istiqamətində

təşviq edir. Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının 2000-2014-cü il yüksək inkişaf tempi məhz dövlətin genişləndirici fiskal siyasəti ilə izah edilir. Müasir təcrübədə hökumətlərin fiskal siyasətinin iqtisadi proseslərə uyğunlaşdırılmasında əksər hallarda müəyyən gecikmələr hiss edilir. Bu kimi halların aradan qaldırılması məqsədi ilə fiskal siyasətin dəyişdirilməsi istiqamətində qərarqəbuletmə prosedurlarının sadələşdirilməsinə əl atılır. Nəticədə gecikmələrdən irəli gələn mənfi iqtisadi təsirlər minimizə edilə bilir. Beynəlxalq təcrübənin təhlili zamanı aydın olur ki, dövlətin fiskal fəaliyyətinin tərkibi kimi vergi siyasəti də iqtisadiyyatın şaxələndirilməsində mühüm alət olaraq istifadə edilməkdədir. Belə ki, vergi yükünün optimallaşdırılması, vergi güzəştlərini tətbiq edildiyi mexanizmlərin işlənib-hazırlanması, bəzi hallarda "vergi cənnətləri" kimi xarakterizə edilən metodlara müraciət edilməsi birbaşa olaraq iqtisadiyyata investisiya axının artırmaq məqsədi da-şıyır. Bu kimi, hallarda hökumətlər vergi bazasının genişləndirilməsi hesabına dövlət gəlirlərində gözlənilən azalmaları kompensasiya edir, əvəzində isə bir sıra yeni mexanizmlərlə biznes üçün vergi güzəştləri tətbiq etməklə biznes mühitin əlverişliliyini yüksəldirlər. Bu zaman hökumətlərin əsas hədəfi birbaşa xarici investisiyaların artırılmasıdır. Dövlətin monetar siyasəti isə öz növbəsində iqtisadi diversifikasiyanı dəs-təkləməlidir. Belə ki, bir sıra ölkələrdə monetar siyasətin müstəqil qurumlar (Mərkəzi Banklar) tərəfindən yerinə yetirilməsi fiskal və monetar siyasət arasında uzlaşmazlığa səbəb olsa da, əksər hallarda monetar siyasət dövlətin iqtisadi kursunu dəstəkləyici istiqamətdə formalaşdırılır. Belə ki, əgər hökumət iqtisadiyyatın genişləndirilməsi və şaxələndirilməsi siyasətinin icrasına başlayıbsa, Mərkəzi Bankın geniş pul kütləsinin artırılması, kredit əlçatanlığının yüksəldilməsi və məzənnə səviyyəsinin optimallaşdırılması siyasətini həyata keçirməsi prosesə müsbət istiqamətli təsir edə bilər Əksər hallarda cavabdeh qurum olaraq mərkəzi banklar tərəfindən həyata keçirilən monetar siyasəti 5 əsas istiqamətdə baş verir. Bu istiqamətlər aşağıdakı kimi klassifikasiya edilir: (https://uploads.cbar.az/assets/cd6b8157f1674ce6f434c6878.pdf)

1) Məhdudlaşdırıcı siyasət – pul təklifi azaldılır və uçot dərəcəsi artırılır;

2) Genişləndirici siyasət - pul kütləsi artırılır, uçot dərəcəsi azaldılır.

Qeyd edilən istiqamətlərdə həyata keçirlən monetar siyasət əsas 3 cür xarakterizə edilir:

**Cədvəl 5: Monetar siyasətin növləri**

| Yumşaq pul siyasəti | Neytral pul siyasəti | Sərt pul siyasəti |
|---|---|---|
| bu zaman mərkəzi bank uçot dərəcəsini azaltmaqla yenidən maliyyələdirməni təşviq edir. Bu addım iqtisadi artımı dəstəkləmək məqsədi daşıyır; | bu zaman mərkəzi bank uçot dərəcəsini dəyişməyərək iqtisadi dinamikaya neytral mövqe sərgiləyir. Bu zaman mərkəzi banklar status-kvonun dəyişməsində maraqlı olmur; | bu zaman mərkəzi banklar ucot dərəcəsi artırmaqla inflyasiyanın azaldılmasına və eyni zamanda iqtisadiyyatın izafi pul kütləsindən müdafiəsinə çalışır. |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı, Statistik Büllüten. https://www.cbar.az/page-11/monetary-policy

Yuxarıda sadalanan məqsədlər üçün Mərkəzi Banklar müxtəlif alətlərdən istifadə edirlər. Bunlardan ən əhəmiyyətlisi açıq bazar əməliyyatları hesab edilir. Bu zaman mərkəzi banklar tərəfindən dövlət istiqrazlarının, korporativ səhmlərin və xarici valyutaların alışı, yaxud satışı yolu ilə dövriyyədəki pulun həcminə nəzarət edilir. Qeyd edilən üsullarla müəyyən həcmdə valyuta maliyyə bazarlarının dövriyyəsindən kənarlaşdırıla və yaxud daxil edilə bilir. Monetar siyasəti icrası zamanı istifadə edilən alətlərdən aşağıdakılar da təcrübədə geniş istifadə edilir:

Qeyd edilən alətlər Mərkəzi Bankların valyuta bazarlarında, bank sektorunun idarə edilməsində, məzənnə siyasətinin həyata keçirilməsində istifadə edilir.

Lakin bəzi hallarda monetar siyasətin təsir imkanları kifayət qədər məh-dudlaşır. Belə ki, inflyasiya və uçot dərəcəsi sıfır və yaxın səviyyədədirsə, bu zaman mərkəzi banklar yuxarıda sadalanan alətlərdən istifadə etmək imka-nından məhrum olur. Bəzi hallarda belə vəziyyətlərdən çıxış yolu alternativ variantlardan istifadədir. Belə ki, mərkəzi banklar dövlət istiqrazlarını deyil korporativ qiymətli kağızlar almaqla istehsalın artımına pozitiv təsir edir və yaxud uzunmüddətli istiqrazlara investisiya

səviyyəsini yüksəldir. Post-neft dövrü hesab edilən 2014-cü ildən sonrakı iki il ərzində digər neft ölkələrində olduğu kimi, Azərbaycan iqtisadiyyatında da ilk olaraq qısa-müddətli staqnasiyaya daha sonra isə (2016-ci il) isə resessiya müşahidə edildi. Buna səbəb isə əvvəlki illər ərzində iri neft gəlirlərinə əsaslanan monetar və fiskal-vergi siyasətin həyata keçirlməsi idi. Belə ki, 2005-ci ildən etibarən Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin və Azəri-Çıraq-Günəşli, Şahdəniz kimi iri neft yataqlarının maksimum istismar imkanının yaranması ölkə gəlirlərini qısa müddət ərzində dəfələrlə artırdı.

Bundan başqa, daha optimal vergi siyasətinin həyata keçirilməsi və Azərbaycan hökuməti tərəfindən başladılan iqtisadiyyatın diversifikasıyası yolu ilə neft asılılığının azaldılması, qeyri-neft istehsalının artırılması yolu ilə daxili tələbatın bir hissəsinin ödənilməsi və ixracın artırılması siyasətinin dəstək-lənməsi məqsədi ilə qərarlar qəbul edildi. Belə ki, investorun təşviqi sənədinin verilməsi haqqında qərar Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının 19 yanvar 2016-cı il tarixli 106-VQD və 107-VQD nömrəli Qanunları ilə Vergi Məcəlləsi, “Gömrük tarifi haqqında” Qanunlara dəyişikləri edildi ki, bu dəyişiklər investisiyanın təşviqi sənədini almış sahibkarlıq subyektlərinin idxal etdiyi avadanlıqlar, qurğular ƏDV və gömrük rüsumundan azad edildi (https://president.az/articles/11089).

Qeyd edək ki, investorun təşviqi sənədi almış şəxslər üçün əlavə vergi güzəştlərin verilməsi də nəzərdə tutulub ki, bu güzəştlər Azərbaycan Respub-likası Prezidentinin 19 yanvar 2016-cı il tarixində təsdiqlənmiş “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azər-baycan Respublikasının Qanunu”yla müəyyən edilib Nəticədə investorun təşviqi sənədini alan şəxslər mal və xidmətlərin idxal ƏDV-si və gömrük tarifi ilə yanaşı, 7 il müddətində nəzərdə tutulan fəaliyyət istiqamətlərindən əldə etdiyi gəlir və mənfəətin ümumi həcminin 50%-lik hissəsindən, əmlak və torpaq vergisindən azad edilib . Azərbaycan Respublikasının 6

may 2016-cı il tarixli 225-VQD və 226-VQD nömrəli Qanunları ilə “Gömrük tarifi haqqında” Qanuna və Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, sənaye parklarında qeydiyyata alınmış rezi-dentlərin fəaliyyətlərinin yerinə yetirilməsi məqsədi ilə idxal edəcəkləri bütün növ mallar 5 il müddətində ƏDV və gömrük rüsumundan azad edilib. Bu dəyişikliklər ölkənin qeyri-neft sahələrində investisiya fəaliyyətləri üçün daha münbit mühitin yaradılması və təşəbbüskarlıq xərclərinin azal-dılması məqsədi daşıyır.

Qeyd edək ki, investorun təşviqi sənədi almış şəxslər üçün əlavə vergi güzəştlərin verilməsi də nəzərdə tutulub ki, bu güzəştlər Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2016-cı il tarixində təsdiqlənmiş “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azər-baycan Respublikasının Qanunu”yla müəyyən edilib. Nəticədə investorun təşviqi sənədini alan şəxslər mal və xidmətlərin idxal ƏDV-si və gömrük tarifi ilə yanaşı, 7 il müddətində nəzərdə tutulan fəaliyyət istiqamətlərindən əldə etdiyi gəlir və mənfəətin ümumi həcminin 50%-lik hissəsindən, əmlak və torpaq vergisindən azad edilib Azərbaycan Respublikasının 6 may 2016-cı il tarixli 225-VQD və 226-VQD nömrəli Qanunları ilə “Gömrük tarifi haqqında” Qanuna və Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, sənaye parklarında qeydiyyata alınmış rezi-dentlərin fəaliyyətlərinin yerinə yetirilməsi məqsədi ilə idxal edəcəkləri bütün növ mallar 5 il müddətində ƏDV və gömrük rüsumundan azad edilib. Kapital yığımının artırılması və əhalidə cəmləşən passiv vəsaitlərin iqtisa-diyyata cəlb edilməsi məqsədi ilə 19 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidenti “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiqləyib. Bu qanunla fiziki şəxslər tərəfindən banklara yerləşdirilən əmanətlərdən əldə edilən faiz gəlirləri, emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendlər, diskont və faiz gəlirləri 2016-cı il fevralın ayının 1-dən başlayaraq, 3 il müddətində vergidən azad edildi (http://www.e-qanun.az/framework/27284).

Məqsəd 2015-ci ildə həyata keçirilən iki kəskin devalvasiyadan sonra ölkənin bank sektorunda yaranan risklər fonunda əmanət və depozitlərin geri çağırılması prosesini zəiflətmək və bu yolla bankların likvidliyini dəstəkləyərək iqtisadiyyata kredit qoyuluşlarında azalma tempini məhdudlaşdırmaqdır.

**Qrafik 4: İqtisadiyyata kredit qoyuluşları: 2019-2020**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı, Statistik Büllüten
https://uploads.cbar.az/assets/fda7f4b02b46b495ceb27290e.pdf

Bütün sadalananlarla yanaşı, Azərbaycan Respublikası Prezidenti tərəfindən daha genişmiqyaslı vergi islahatlarının aparılması məqsədi ilə 4 avqust 2016-cı il tarixində "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda 2016-cı ildə vergi sahəsində həyata keçiriləcək islahatların aşağıdakı istiqamətləri müəyyən edilib: (http://www.e-qanun.az/framework/33308 ):

- Vergi ödəyiciləri üçün optimal gəlirliliyin təmin edilməsi, vergi yükünün azaldılması və vergi inzibatçılığının sadələşdirilməsi;

- Kiçik və orta sahibkarlığın təşviqi, pərakəndə ticarət sahəsində rəqabət mühitinin yaradılması, bu sahədə fəaliyyət göstərən vergi subyektləri üçün ƏDV üzrə

vergitutma obyekti olaraq ümumi dövriyyənin deyil, alış və satış qiymətləri arasındakı fərqin (ticarət əlavəsi) olması;

-topdan və pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərqli meyarların müəyyənləşdirilməsi;

- Turizm sahəsində cəlbediciliyin artırlması üçün Azərbaycan Respub-likasında alınan istehsal və ya kommersiya məqsədli olmayan mallar üçün ödənilən ƏDV-nin geri qaytarılması ("Tax free") sisteminin tətbiq olunması;

- Diferensial ƏDV dərəcələrinin tətbiqi;

- Vergi bəyannaməsinin təqdim edilməsindən 30 gün keçdikdə kameral yoxlamalarının tətbiqinin qadağan edilməsi;

- Gizli iqtisadiyyatın azaldılması və vergitutma obyektinin genişlən-dilməsi üçün nağdsız əməliyyatların təşviqi;

Nəzarət-kassa aparatları istifadə edilmədən aparılan fəaliyyət sahələri-nin dəqiqləşdirilməsi, bu sahələrdə fəaliyyət göstərən vergi subyektləri üçün aylıq sabit vergilərin tətbiqi;

- Vergi subyektlərinin inzibati xərclərinin azaldılması üçün hesabatların sadələşdirilməsi məqsədi ilə "Vahid hesabat standartı" (Common Reporting Standard) sisteminin tətbiqi;

- Digər ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılmasına dair bey-nəlxalq sazişlər üçün adminstrativ qaydaların sadələşdirilməsi;

- "Rəqəmsal iqtisadiyyatın" (digital economy) vergi bazasına daxil edil-məsi;

- Elektron qaimə-fakturaların tətbiqi;

Ölkədən kənarda əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi prosesinin şəffalaşdırılması məqsədi ilə digər ölkələrlə maliyyə məlumatlarının avtomatik mübadiləsinin təmin edilməsi;

- Ofşor zonalarda fəaliyyət göstərən Azərbaycan rezidentlərinin əməliyyatlarına effektiv vergi nəzarətinin təmin edilməsi;

- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Qlobal Forumu çərçivə-sində beynəlxalq reytinqin yüksəldilməsi məqsədi ilə vergi qanunvericiliyinin davamlı təkmilləşdirilməsi və s. göründüyü kimi bu Sərəncam, vergi islahatları paralel olaraq vergi bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi yükü-nün azaldılması, vergi subyektlərinin optimal gəlirliyinin təmini, diferensial verginin tətbiqi, ölkənin qlobal reputasiyasının yüksəldilməsi, şəffaflığın artırılması kimi sahələrdə çoxşaxəli islahatların həyata keçirilməsi yolu ilə ölkənin biznes mühitinin cəlbediciliyinin artırılması kimi mühüm məsələləri özündə ehtiva edir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2017-ci ilin 20 fevral tarixində verilmiş "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" haqqında Fərman ticarət və turizm sektorunun inkişaf etdirilməsi, bu sahədə ənənəvi olmayan müasir tələblərə uyğun metodların tət-biqi baxımından mühüm əhəmiyyət kəsb edir. (http://www.e-qanun.az/framework/34878)

Bütün bunlara baxmayaraq, vergi yükünün və vergi inzibatçılığının hələlik yeni çağırışlara tam uyğunlaşdırıldığını demək olmaz. Belə ki, Central İntelligence Agency (CİA) hesabatlarına görə, Azərbaycanda vergi gəlirlərinin ÜDM-ə nisbəti 30,9 faizdir. (O.N.Aras, 2017)

Hazırkı şərtlər daxilində vergi yükünün səviyyəsi investisiya mühitinin kifayət qədər cəlbedici olmasına neqativ təsir göstərə bilər. Qısa zamanda daha da yumşaq vergi dərəcələrinin tətbiq edilməsi istiqamətində addımların atılması xarici investorların

diqqətini cəlb etməklə yanaşı, ölkədə iqtisadi aktivliyi artıra və beləliklə də, orta və uzunmüddətli dövrdə vergi bazasının genişlənməsi yolu ilə dövlətin vergi gəlirlərində baş verəcək azalmanın kompensasiya edə bilər.

Məsələn, “Central İntelligence Agency” hesablamalarına görə, qonşu Gür-cüstanda vergi yükü Azərbaycanla müqayisədə 2,4 dəfə az olsa da, vergi gəlir-lərinin ÜDM-ə nisbəti 29,5% olmaqla təxminən Azərbaycanla eyni səviyyədədir. Bunun əsas səbəbi isə vergi yükünün azaldılması halında gizli iqtisadiyyatın azalması və iqtisadi fəaliyyətlərin daha çox hissəsinin vergi obyek-tinə çev-rilməsi və paralel olaraq sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin vergi bazasının genişlənməsidir. Lakin vergi yükünün azaldılması nəticəsində işsizlik azala, iqtisadi sektorlarda mənfəət norması yüksələ, ixrac potensialı arta bilər. Beləliklə də, Strateji Yol Xəritələrində nəzərdə tutulan hədəflərə nail olmaq daha asan ola bilər. Aşağıdakı istiqamətdə addımların atılması vergi yükünün azalması ilə yanaşı, daha çox sahibkarlıq subyektlərini əhatə etməklə ölkə üzrə vergi yükünün optimal paylanması və ictimai ədalətliliyi təmin edəcəkdir.

Sadələşdirilmiş vergi dərəcələrinin yuxarıda təklif edilən mexanizm əsasın-da tətbiq edilməsi nəticə etibarı ilə hökumətin regionların inkişafı, qeyri-neft iqtisadiyyatının gücləndirilməsi, urbanizasiya səviyyəsinin optimallaşdırılması kimi strateji hədəfləri dəstəkləyəcəkdir.

-diferensial ƏDV-nin tətbiq prosesinə ən qısa zamanda başlanmalı;

- Hüquqi şəxslərin mənfəəti üzrə vergitutma qaydasının sektorlar üzrə diferensial yanaşma əsasında yenidən təşkil edilməsi – bu halda investisiya axınını istiqamətləndirmək və hökumətin uzunmüddətli dövr üçün prioritet hesab etdiyi sahələrdə aktivliyi dəstəkləmək olar;

- İstənilən növ innovativ və daxili istehlakın idxaldan asılılığına hədəflən-miş investisiya fəaliyyətlərinin 2025-ci elədək əmlak və torpaq vergisindən azad edilməsi

- 2025-ci ildək müddəti əhatə edən dövr üçün hər ilin bir rübünün kiçik və orta sahibkarlıq sübyektləri üçün vergi tətilləri olaraq müəyyənləşdirilməsi. (https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_Nazirler_Kabinetinin_2016_ci_ilin_sosial_iqtisadi_inkisafinin_yekunlarina_ve_qarsida_duran_vezifelere_hesr_olunan_iclasi_kechirilib_YENILANIB_VIDEO-1025304;).

Yəni reallıqlar yuxarıda da qeyd etdiyimiz kimi, alternativ yollarla iqtisadiyyatın dəstəklənməsi zərurəti yaradıb. Monetar siyasət bu məqamda mühüm əhəmiyyət daşıyır. Belə ki, doğru monetar siyasətin işlənib həyata keçirilməsi post-neft dövründə məcmu tələb, infilyasiya, iqtisadi aktivlik, məşğulluq, milli valyutanın məzənnəsi kimi mühüm indiqatorlar üzrə daha dayanıqlı nəticələrin əldə olunmasını şərtləndirir.

İlk olaraq qeyd edək ki, Azərbacan kimi valyuta təklifinin və pul kredit siyasətinin vahid mərkəzdən təmin edildiyi ölkələrdə iqtisadiyyata təsir alətləri pul kütləsinin həcmi, faiz dərəcələri kimi alətlərindən istifadə etməklə tənzimlənir. Lakin bu zaman diqqətə alınmalıdır ki, xüsusi ilə də resurs ölkələrində iqtisadi böhranların pul kütləsinin genişləndirilməsi ilə mümkünlüyü bəzi hallarda çətinliklərlə müşayiət olunur.. Bank sektoruna etibarın kəskin zəifləməsi fonunda Məkəzi Bank 13 iyun 2016-cı il tarixindən etibarən ilk dəfə depozit hərraclarının keçirilməsinə qərar vermişdir.Mərkəzi Bank tərəfindən keçiririlməsi hazırda da davam edən manat depozit hərracları Mərkəzi Banka aşağıdakı istiqamətlərdə daha çevik siyasət aparmaq imkanı təmin edir:

I) dövriyyədə olan manat kütləsinin məhdudlaşdırılması;

II) manatın gəlirliyini artırmaqla ictimai inamın bərpası,

III) bank sektoruna yaranmış inamsızlıq fonunda vətəndaşın və biznesin passiv yığımlarının nəzarətə götürülməsi.

Mərkəzi Bankın 2016-ci ilin əvvəlindən etibarən həyata keçirdiyi sərt monetar siyasət öz nəticəsini vermiş və pul bazası kəskin şəkildə azalmışdır.

Beləliklə, 2014-cü ilin avqust ayı ilə müqayisədə 2017-ci ilin aprelində 4115,5 milyard manat və yaxud 35% azalaraq 7,6 milyard manat olub. Pul bazası ilə paralel olaraq banklardan kənarda olan nağd pul kütləsi də kəskin şəkildə azalma dinamikası nümayiş etdirib.

Mərkəzi Bank monetar siyasəti yenidən gözdən keçirməli, infilyasiya, devalvasiya və məşğulluq, məcmu tələb, iqtisadi diversifikasiya arasında tarazlaşdırıcı səviyyə müəyyən etməli, bu məqsədlə qısa və ortamüddətli plan hazırlanmalıdır. Başqa sözlə, ən qısa zamanda optimal monetar siyasətə keçid edilməli, iqtisadiyyat maliyyə resursları ilə təmin edilməlidir.
(https://uploads.cbar.az/assets/cd6b8157f1674ce6f434c6878.pdf ).

## Nəticə və təkliflər

İndiki şəraitdə dünyada başverən qlobal problemlər-pandemiya;bununla əlaqədar iqtisadiyyatda yaranan durğunluq iqtisadi davamlılıq məsələsini daha da aktuallaşdırdı. Azərbaycan iqtisadiyyatının diversifikasiyası istiqamətində mövcud siyasətin effektivliyinin artırılması gələcək inkişaf dinamikasının sürətlədirilməsi və xarici fluktasiyalara qarşı dayanıqlı mühitin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Aşağıda qeyd edilən təkliflər diversifikasiya siyasətinin daha təkmil formada həyata keçirilməsinə töhfə verə bilər:

Aparılan tədqiqatın nəticələrinə əsaslanaraq diversifikasiya istiqamətlərinin aşağıdakı formada təsnifləşdirilməsi tövsiyyə edilir:

Ufüqi diversifikasiya – mövcud iqtisadi sektorlar üzrə dərinləşdirici istehsal mühitinin yaradılması: karbohidrogen məhsulların emal dərinliyinin artırılması, neft-kimya sənayesinin müasir standartlara və qlobal bazarda tələb səviyyəsinə əsaslanan yenidənqurulması, dağ mədən sənayesi əsasında son emal müəsisələrinin qurulması, maşınqayırma sənayesinin regional tələblərə uyğunlaşdırılması yolu ilə çevik adoptasiya şəraitinin təşkili kimi addımlarla son məhsul ixracının xüsusi çəkisinin artırlması mümkündür

Şaquli diversifikasiya – ənənəvi olmayan və yaxud daha az inkişaf etmiş sahələrin uzunmüddətli strategiyalara əsaslanan dövlət dəstəyi ilə inkişaf etdirilməsi mümkündür. Belə ki, Qafqaz, Orta Asiya, İran, Pakistan, Yaxın Şərq ölkələrinin bazarlarına hədəflənən təmir – aksesuar məhsullarının hazırlanması, dərman preparatları istehsalının ixracyönlü inkişaf etdirilməsi, İslam ölkələrinin bazarlarına istiqamətlənən halal yeyinti sənayesinin inkişaf etdirilməsi, profesional xidmətlər təklif edən daşımaçılıq şirkətlərinin yaradıl-ması, innovativ ideyaların vençur kapitallaşdırılması kimi fəaliyyətlər ölkə iqtisadiyyatının şaxələndirilməsi, daxili tələbat asılılığının azaldılması və qeyri-neft ixracının genişləndirilməsinə səbəb ola bilər.

Bütün bunları ümumiləşdirsək iqtisadiyyatın diversifikasiyası – iqtisadiyyatın zəif halqalarının daha dərindən öyrənilməsi, problemlərin aşkar edilməsi və həlli istiqamətindən konkret strategiyaların hazırlanması yolu ilə ayrı-ayrı sektorların ÜDM-də xüsusi çəkisi arasında balans yaradılmasına, həmçinin daxili və xarici zərbələrə davamlılığı artırmasına nail olmaqdır.

İxracın diversifikasiyası – iqtisadiyyatın diversifikasiyası ilə yanaşı, ölkə iqtisadiyyatının daha sağlam təməllər üzərində dayanması, tədiyyə və ticarət balansının karbohodrogen məhsullarından asılılığının zəiflədilməsi, qlobal iqtisadi fluktasiyalara davamlılığın artırılması və ölkənin əhalisinin daxili tələbatının yerli məhsullar əsasında ödənilməsi məqsədi ilə ixracın diversifikasiyası həlli vacib problemlərdəndir. Bu məqsədlə aşağıdakı addımların atılmasına ehtiyac var:

a) rəqabətli istehsal mühitinin yaradılması prosesi sürətləndirilməli,sahibkarlığin inkişafına maneə olan aspektlərin aradan qaldırılması-vergi optimizasiyası həyata keçirilməlidir;

b) xarici investorların yerli sektorların maliyyə resursları təmin edilməsində payı artırılmalidir;

c) məzənnə siyasəti optimallaşdırılmalı,

d) ixrac prosesinin təşviqi fəaliyyətləri davamlı təkmilləşdirilməli,

e) ixrac prosedurlarının sadələşdirilməsi davam etdirilməli,

f) xarici bazarların araşdırılması, dəyişən tələbatın öyrənilməsi və yeni bazarlara çıxışların davamlılığı təmin edilməli.

# Ədəbiyyat siyahısı

## Azərbaycan dilində ədəbiyyat siyahısı


1. “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 13.07.2016. http://www.e-qanun.az/framework/33308
2. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, № 640, 02.03.2001. http://www.e-qanun.az/framework/4467
3. “Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair Proqramın” təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı № 219s, 17.10.2002. http://www.e-qanun.az/framework/1469
4. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, № 640, 17.08.2002. http://www.e-qanun.az/framework/1469
5. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27.02.2014. https://president.az/
6. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22.09.2016.http://www.e-qanun.az/framework/36050
7. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Sahib-karlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu, 26.10.2015. https://president.az/
8. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikasının Qanunu”, 20.04.2016. https://president.az/

9. Azərbaycan Respublikası Mərkəzi Bankı, “Azərbaycan Respublikası Mərkəzi Bankının 2016-cı il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə Bəyanatı”, baxış tarixi: 27.04.2017, 12s.

10. “Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında” Azər-baycan Respublikası Prezidentinin Sərəncamı, 17.03.2017. http://www.e-qanun.az/framework/32370

11. “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihələrinin həcmi ilə bağlı minimal məbləğ və investisiya layihələrinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri”, 20.04.2016.

12. O.N.Aras, E.Süleyman, A.Zeynalov, “Azərbaycan Respublikasında Qeyri-Neft Sektoru Üzrə İdxal-İxracın Mövcud Vəziyyətinin Təhlili və Qiymətləndirilməsi”, baxış tarixi 27.02.2017, səh 4.

13. “Qeyri-neft məhsulları ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 01.03.2016. https://president.az/

14. “Qeyri-neft məhsulları ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18.01.2016. https://president.az/

## Rus dilində ədəbiyyat siyahısı

1. Ансофф И. (1999). “Новая корпоративная стратегия”.СПб.: ПитерКом,.с.416.

2. Александр М.В., Андрей Г. Р. (2010). “Диверсификация как инструмент развития современного предприятия”. с:345

3. И.С. Басков. (2012). “Диверсификация с Позиции Ресурсной Теории, Трансакционного и Портфельного Подходов”.с:658

4. И.П. Гурова, Е.В. Зыкова, Е.Б. Склярова. (2007). “Диверсификация российского экспорта”.с.325

5. Ефимычев, Ю.И .(2007). “Диверсификация как способ повышения производительности труда и эффективности производства”. “Вестник Нижегородского госуниверситета им. Н.И. Лобачевского”. №3. С. 168-170.

6. Косинский П.Д,В.В.Меркурьев, А.Г. Чупрякова.(2015).”Формирование агломераций муниципальных образований: теоретические и прикладные аспекты”.с.206.

7. Косинский П.Д., А.Г.Меркурьев. (2014). «Муниципальный менеджмент: системный подход» .с.244

8. Климовец, О.В. (2009). “Диверсификация деятельности”. “Российское предпринимательство”. №10. с. 16-19.

9. Коллегов А.К. (2010). “Диверсификация как основная тенденция развития высшего педагогического образования в России”,.с:191-193

10. Магомедова, З.Г. (2009). “Диверсификация экспорта как условие экономического роста России.” Российский внешнеэкономический вестник. №3. С. 35-40.

11. М.А. Шаталов, С.В. Овсянников. (2010). “Диверсификация как форма интеграции агропромышленного производства”.с.50-53

12. М.Г. Коваленко. (2012). “Диверсификация экономики региона и ее роль в преодолении внутрирегиональных различий”.с.450

13. Николай С.А., Суслов Сергей Александрович.(2013). “Диверсификация отраслей сельского хозяйства – основа эффективности в условиях рыноч-ной экономик”, Вестник НГИЭИ, № 6.

14. Шаталов М.А., Мычка С.Ю. (2014).“Диверсификация как метод снижения финансовых рисков в условиях нестабильности экономики”, Территория науки № 6. с.54-64

15. Ю.Т. Ибатуллова.(2008). “Кластеры как инновационная форма диверсификации и развития региональной экономики”.с.378

16. О.Н. Момотова, Г.В. Воронцова. (2011). “Стратегия диверсификации как приемлемый вариант развития региональных социально-экономических систем”, KANT, № 2.с.235

17. Гитман Михаил Борисович, Гитман Елена Константиновна, Матушкин Николай. (2009). “Диверсификация системы профессиональ-ного образования на основе использования дуальных программ”, Высшее образование в России № 3. с-67-78

18. У. Тайхлер. (2015). “Многообразие и диверсификация высшего образования: тенденции, вызовы и варианты политики”. с.289

19. Воденко К.В., Черных С.С. (2015). “Диверсификация роли института высшего образования в процессе воспроизводства и концентрации социального капитала”.с.234

20. В. Чайка. (2008). “Диверсификация сельских территориальных систем”.с.235

21. В.А. Семыкин, В.В. Сафронов. (2014). “Импортозамещение как эффектив-ный инструмент оптимального развития рыночной экономики”.с.345

**İngilis dilində ədəbiyyat siyahısı**

1. Ahmadov A. (2012). Political Determinants of Economic Diversification in Natural Resource-Rich Developing Countries. Unpublished Paper.p.8-12

2. Cuberes and Jerzmanovski.(2008). “Democracy, Diversification, and Growth Reversals” MPRA Paper No. 11646

3. Esanov A.(2012). “Economic Diversification: Dynamics, Determinants and Policy Implications”, Revenue Watch Institute Report, p.5-16

4. Gouvea R. and Gautam V. (2015).“Reassessing Export Diversification Strategies: A Cross-country Comparison”, Modern Economy, 6.p.96-118

5. Hesse H.(2008). “Export Diversification and Economic Growth”, Commission on Growth and Development, Working Paper N. 21,.p.380

6. H.P. Bowen.(2017). “Are international and product diversification substitutes or complements? Theoretical and empirical perspectives”, Global Strategy Journal,.p.241-256

7. Kənan Aslanlı, Zöhrab İsmayıl, Rövşən Ağayev, Azər Mehdiyev.(2013). “Assesment of Economic and Export Diversification-Azerbaijan”, Bakı, p.14

8. N.A.İsayev. (2017). “Development of the Non-Performing Sector of Independent Azerbaijan”,.p.240

## İnternet resursları

1. https://www.stat.gov.az/source/system_nat_accounts/ - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi, bölüm: Milli hesablar sistemi və tədiyə balansı, “İqtisadiyyatın neft və qeyri-neft bölməsində ümumi daxili məhsul istehsalı“, baxış tarixi: 17.02.2017, 1s.

2. https://www.stat.gov.az/source/trade/ - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi, bölüm: Azərbaycanın xarici ticarəti, “Cədvəl 8.4: İxracın əmtəə strukturu”, baxış tarixi: 17.02.2017, 1s.

3. http://www.e-qanun.az/framework/34502 - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsi, bölüm: dövlət büdcəsi, “Azərbaycan Respublikasının 2017-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrinin təqdimatı”, baxış tarixi: 17.02.2017, 20s.

4. https://president.az/articles/21993 - “Azərbaycan Respublikasının mili iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiqlənib, Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi, prezident.az, baxış tarixi: 18.02.2017, 4s.

5. https://oilfund.az/storage/uploads/7_2014_tam.pdf - Azərbaycan Respublikası Dövlət Neft Fondunun rəsmi internet səhifəsi, “Azərbaycan Respublikası Dövlət Neft Fondu, illik hesabat – 2015”, baxış tarixi: 18.02.2017.

6. https://customs.gov.az/ - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsi, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2015-ci il ərzində fəaliyyətinə dair hesabatı", baxış tarixi: 22.04.2017, 5s

7. https://president.az/articles/50798 - Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, "Dünya Azərbaycanlılarının IV Qurultayının açılışında İlham Əliyevin nitqi", baxış tarixi: 13.05.2017

8. https://azertag.az/xeber/Ipekchiliyin_ve_findiqchiligin_inkisafina_dovlet_desteyinin_guclendirilmesi_ile_bagli_elave_tedbirler_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1011069 - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, "İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 16.11.2016.

9. http://www.e-qanun.az/framework/36324 Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5.10.2016

10. https://www.worldbank.org/en/home

11. https://www.cbar.az/

12. https://www.stat.gov.az/

## Sxemlərin siyahısı

**Sxem 1:** Ansoff matrisi ........................................................................................ 14

**Sxem 2**: Porter modeli......................................................................................... 21

**Sxem 3:** ABŞ nümunəsi əsasında iqtisadi diversifikasiya.................................... 22

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Firmanın strategiyaları ........................................................................ 16

**Cədvəl 2:** İstehlakçı qiymətləri indeksi ................................................................ 27

**Cədvəl 3:** Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı .................. 28

**Cədvəl 4:** Pul aqreqatları ....................................................................................... 45

**Cədvəl 5:** Monetar siyasətin növləri...................................................................... 67

## Qrafiklərin siyahısı

**Qrafik 1:**.Bazarda rəqabətqabiliyyətliliyə təsir edən elementlər ........................... 19

**Qrafik 2:** Pul multiplikatoru(dövrün sonuna) ....................................................... 46

**Qrafik 3:** Əvvəlki ilin müvafiq dövrünə nisbətən neft və qeyri-neft sektorunun real artım tempi**....** ........................................................................................................ 50

**Qrafik 4:** İqtisadiyyata kredit qoyuluşları: 2019-2020 .......................................... 70